

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Xankəndi: doğma su, doğma işıq, doğma xidmət



7


# SƏS

№ 180 (6863)

4 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik


# Mədəniyyətlərarası dialoq kontekstində körpü




2

**PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan əsrlər boyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub"**

# BMT-nin missiyasının müşahidə etdiyi ŞƏFFAFLIQ VƏ HUMANİZM



3

## Gəncə terroru: dinc sakinlərə yaşadılan faciələr




4

## Suqovuşanda yeni həyat



10

## MEDİA-nın həyata keçirdiyi layihənin açılışı olub



9

## Sementin bahalaşması mənzil bazarına necə təsir göstərəcək?



16

## Fars şovinizminin sonu yaxınlaşır



14

# Mədəniyyətlərarası dialoq kontekstində körpü

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan əsrlər boyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub"

"Qitələrarası körpü olmağımız cəmiyyətimizin inkişafında mühüm rol oynamışdır. Azərbaycan əsrlər boyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub. Otuz ildən artıq müstəqillik dövründə biz həyat tərzimizin bu faktorunu gücləndirmişik. Biz bunu sabitliyin, proqnozlaşdırmanın və Azərbaycanda yaşayan bütün etnik qrupların və bütün dini konfessiyaların dinc birgə yaşayışı üçün əhəmiyyətli faktor hesab edirik. Biz həqiqətən də bir ailə kimi yaşayırıq və bir sıra beynəlxalq təşkilatlar bunu qeyd edib və bu, onların qərarlarında öz əksini tapıb". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışı zamanı bildirib.

Xüsusi ilə də dünaynın qarışıq bir dövründə bir məkanda yəhudilik, xristianlıq və islamın, eləcə də müxtəlif inancların qarşılıqlı hörmət şəraitində Azərbaycanda yaşaması yaşaması bu mühitin tolerantlığın hökm sürməsinə dəlalət edir. Tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən, irqindən asılı olmayaraq siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkədə firavan həyat sürməsinə imkan yaradıb. Bu məkanda bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Bu ölkədə hər kəs mənsubiyyətindən, irqindən asılı olmayaraq azad nəfəs alır, sərbət fəaliyyət göstərir. Ölkədə olan müxtəlif qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərə sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər vermiş olur. Bu gün Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı mühüm layihələr həyata keçirir. "BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyir" - deyə Prezident bildirib ki, ölkəmizin təşəbbüsü ilə mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif sivilizasiyaların nümayəndələri arasında təmasların daha nəticəyönümlü olması üçün unikal platformadır. Forum Azərbaycanın dünyaya nümunə olan çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyətinin təsdiqi, ölkəmizin mədəniyyətlərarası dialoq mərkəzinə çevrilməsinin daha bir göstəricisidir. Dərin multikulturalizm köklərinə malik ölkə və xalq kimi, Azərbaycanın qlobal arenada bu dəyərlərin təşviqində müvafiq rol oynayır. Bakıda keçirilən bütün beynəlxalq tədbirlər kimi, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da xalqlar və mədəniyyətlərarası dialoqun inkişafı baxımından, əhəmiyyəti yüksək qiymətləndirilir.

Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir. Azərbaycan dünya ölkələri arasında mədəni əlaqələrin gücləndirilməsinə ev sahibliyi edərək, bu əlaqələrin inkişafına yüksək önəm verdiyini bir daha ortaya qoymuş olur. Bakıda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, Gənclər siyasəti üzrə I Qlobal forumu, Caz Festivalı, "Bakı Elm Festivalı-2014", BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu kimi mühüm əhəmiyyət kəsb edən tədbirləri təşkil olunmasına Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi, yüksək imici buna səbəbdir. Azərbaycan bu gün ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında aparıcı yerlərdən birini tutur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan təşkilatçılıq, təhlükəsizlik, iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya tədbirlər yüksək səviyyədəddir. Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması digər ölkələrlə rəqabətdə üstünlüyə gətirib çıxarır.






### "BU GÜN BİZ ÜFÜQLƏRİMİZİ GENİŞLƏNDİRİRİK"

Bu və ya onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünü cəlb edən Azərbaycan xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. "Əsrlər boyu birgə yaşayış və tərəfdaşlıq tarixinə malik qonşularımız ilə yaxşı münasibətlər sayəsində biz coğrafi yerləşməmizi müsbət ssenariyə çevirə bilmişik. Bu gün biz üfüqlərimizi genişləndiririk. Bu mühüm beynəlxalq tədbirin keçirilməsinin bizə həvalə olunmasını ölkəmizə olan etimadın və fəaliyyətimizə dəstəyin göstərici hesab edirik", - deyə Azərbaycan Prezidenti çıxışında qeyd edib. Müasir dünyanı narahat edən məsələlər də, ölkəmizdə müzakirə olunur. Dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından keçirilən tədbirlərdə ölkələrin təmsilçiləri və fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin etmək kimi böyük bir missiya həyata keçirilir. Qütbləşən dünyada əhatəli və sülhsevər cəmiyyətlərin necə qurulması yolları müzakirə edilir. Dünyaya nümunə olan çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyətinin təsdiqi, ölkəmizin mədəniyyətlərarası dialoq mərkəzinə çevrilməsinin daha bir göstəricisidir. Dərin multikulturalizm köklərinə malik ölkə və xalq kimi, Azərbaycanın qlobal arenada bu dəyərlərin təşviqində müvafiq rol oynayır.




### MULTİKULTURAL MÜHİTİN MÖVCUDLUĞU

Tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycan həm ölkədə, həm də bütün dünyada tolerantlıq və mədəniyyətlərarası dialoq yaratmağı davam etdirməyi qarşıya məqsəd qoyub. Ölkəmizdəki multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab edib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycanın azadlığı və firavanlığı uğrunda mübarizə aparıblar. Azərbaycan Respublikasının din sahəsində apardığı siyasət cəmiyyətdə dinin müxtəlif formalarda mövcudluğunu nəzərə alaraq, fikir, söz və vicdan azadlığı üzərində qurulub. Bu ölkədə hər kəs mənsubiyyətindən, irqindən asılı olmayaraq azad nəfəs alır, sərbəst fəaliyyət göstərir. Azərbaycan ərazisində məscidlərin, pravoslav, katolik, gürcü-pravoslav kilsəsi, sinaqoq və digər ibadət yerləri fəaliyyəti multikultural mühitin mövcudluğuna tam əsaslanır.

### FƏRQLİ DİN VƏ MƏDƏNİYYƏTLƏRİN QOVUŞUĞUNDA

Azərbaycan xalqı digər xalqlara qarşı həmişə tolerantlıq göstərib və bu gün də bu ənənə qorunub-saxlanılır. Dünyada terror, ksenofobiya, irqçiliklə bağlı münaqişələr baş verdiyi halda, birgə yanaşı yaşamaq haqqında təsəvvürlər, məhz bizim ölkədə genişlənir. Bir daha aydın olur ki, Azərbaycan əsrlərdir fərqli din və mədəniyyətlərin qovuşuğunda yerləşir, ölkədə tarix boyu tolerantlıq və multikulturalizm mövcud olub, müxtəlif etnik qrupların və dinlərin nümayəndələri burada sülh şəraitində birgə yaşayıblar. Sülhə nail olmaq imkanlarına maneə törədən qeyri-sabit dövlətlər Azərbaycandakı əmin-amanlıqdan, tolerantlıq ənənələrindən bəhrələnməli, dünyanı buxovlayan qərəzli çıxışlara qarşı birgə iradə nümayiş etdirməlidirlər. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# BMT-nin missiyasının müşahidə etdiyi
# ŞƏFFAFLIQ VƏ HUMANİZM







Birləşmiş Millətlər Təşkilatı missiyasının Azərbaycanın Qarabağ iqtisadi rayonuna düz 30 ildən, bu qədər böyük fasilədən sonra ilk dəfə gəlməsi təbii ki, səbəbsiz deyil. Səbəb də odur ki, düz 30 ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan tərəfi, məhz Qarabağda törətdikləri cinayət əməllərini, qanunsuz hərəkətlərini ört-basdır etmək, gizlətmək məqsədi ilə beynəlxalq missiyaların gəlişini əngəlləyib, buna mane olub. İndi artıq bu missiya, BMT-nin missiyası Azərbaycanın Qarabağ iqtisadi rayonuna məhz ölkəmizin dəvəti ilə gəlir və bu, çox müsbət haldır, diqqətdən yayınmayan məqamdır.

Sözügedən missiyanın məhz ölkəmizin dəvəti ilə Qarabağa gəlməsi onu göstərir ki, Azərbaycan şəffaflığı təmin edir, xoş niyyətli olduğunu, humanist olduğunu çəkinmədən nümayiş etdirir. Eyni zamanda, BMT-nin missiyasının düz 30 ilə yaxın müddətdə Qarabağ ərazilərinə gəlməsini Ermənistan tərəfinin əngəlləməsi isə, həmin ərazini işğal altında saxladıqlarını, dağıdıb viran qoyduqlarını kimlərinsə görməmələri, monitoring aparılmasına, vəziyyətin düzgün, ədalətli dəyərləndirilməsinə imkan verməmək məqsədi daşıyıb. Bütün bunları nəzərə aldıqda görürük ki, BMT-nin missiyasının Azərbaycanın Qarabağ iqtisadi rayonuna gəlməsi, həqiqətən də, hər mənada təqdirəlayiqdir.

BMT missiyası öz səfəri zamanı bir sıra məsələləri aydınlaşdırmaq imkanı əldə edib. Xüsusilə də, bu missiyaya Azərbaycanın regionda həyata keçirdiyi cari humanitar fəaliyyət ilə tanış olmaq imkanı yaradılıb. Diqqətə çatdıraq ki, infrastrukturun bərpası, qeyri-qanuni erməni silahlı qüvvələrinin tərksilah olunması və silah-sursatının müsadirə edilməsi prosesi, ermənilərin basdırdıqları minalardan yaranan təhlükələrin heyətin üzvlərinə nümayiş etdirilməsi olduqca əhəmiyyətlidir. Çünki heyət üzvləri hər şeyi öz yerindəcə və olduğu kimi görə bilir, həqiqətin nədən ibarət olduğunu müəyyənləşdirir və Azərbaycanın da bu məsələlərdə şəffaflığı təmin etməsinin şahidi olur. Yəni, bütün bunların müşahidə edilməsinə şəraitin yaradılması ilk növbədə, şəffaflıq baxımından əvəzsizdir, çünki BMT missiyasının heyəti onu da görür və fərqindədir ki, Ermənistan tərədindən fərqli olaraq, Azərbaycanın gizlətmək, ört-basdır etmək kimi bir niyyəti yoxdur və reallıqlarla hər kəsi tanış etmək, bütün bunları aşkar şəkildə nümayiş etdirmək, bunları hər kəsin görməsi ölkəmizin maraqları daxilindədir. Çünki Azərbaycan haqlı tərəfdir, ədalətli mövqedədir və qanuni tələblərlə çıxış edir.

Artıq BMT missiyası Ağdam-Xankəndi yolu ilə, ”Laçın” sərhəd-nəzarət buraxılış məntəqəsinə gedərək müşahidə aparıb. Məhz həmin müşahidələr sayəsində onlar Qarabağ ermənilərinin məcburi şəkildə deyil, öz qərarları ilə Ermənistana köç etdiklərinə şahidlik ediblər. Şahidi olublar ki, dövlətimiz onlara vətəndaşlıq təklif etdiyi halda, onların təhlükəsizliyinin təminatı və bir sıra tədbirlərlə bağlı məsələləri öz üzərinə götürdüyü halda, onlar separatçıların təhriki ilə bundan imtina edərək ərazilərimizi tərk edir, Ermənistana üz tuturlar. BMT missiyası artıq öz müşahidələri ilə əmin olub ki, Ermənistan tərəfi Qarabağ ermənilərindən, onların köç məsələlərindən istifadə edərək ”etnik təmizləmə” şousu yaratmaq istəyir və bununla da, Azərbaycana qarşı beynəlxalq təzyiqlərin göstərilməsinə çalışır. Təbii ki, Qarabağın erməni əhalisinin köçməsi üçün Azərbaycan dövlətinin hansısa təsirindən söhbət belə gedə bilməz və bu məqamı da BMT missiyası heyəti öz gözləri ilə görüb, buna əmin olub. Ona da əmin olub ki, Azərbaycan tərəfi məhz Qarabağda yaşayan ermənilərin vətəndaşlığı ilə bağlı məsələləri həll etmək üçün praktiki addımlar atır və eləcə də bununla yanaşı, Qarabağın erməni sakinlərinə davamlı humanitar yardımlar göstərilir. Bunlar əlbəttə ki, BMT missiyasının diqqətinə elə yerindəcə çatdırılıb.

BMT missiyasının Azərbaycanın Qarabağ iqtisadi rayonuna gəlişinin ölkəmiz üçün ən önəmli tərəfi ondan ibarətdir ki, missiya artıq hansısa beynəlxalq güclərin, erməni lobbisinin təsiri ilə deyil, obyektivlik meyarı əsasında mövqe ortaya qoymaq məsuliyyətini hiss etmək məcburiyyətində qalır. Beynəlxalq Millətlər Təşkilatı dünyanın ən böyük və nüfuzlu təşkilatıdır və bu təşkilatın gəldiyi, yaxud gələcəyi qənaət də olduqca önəmlidir. Xüsusən də, ermənilərin, erməni lobbisinin dünyaya yalan informasiya yaymaq, yanlış təsəvvür formalaşdırmaq istədiyi zamanda, bunun üçün ciddi cəhdlə çalışdığı məqamda bunun əhəmiyyəti olduqca böyükdür. Sözsüz ki, heyətin gördükləri, müşahidə etdikləri fonunda Azərbaycan məntiqi olaraq, BMT missiyasından ədalətli yanaşma, ədalətli mövqe sərgiləməyi, rəy bildirməyi gözləyir. Çünki hər şey göz önündədir və heyət erməni uydurmalarına deyil, reallıqlara istinad etməlidir. Əgər missiya qeyri-obyektiv rəy ortaya qoyarsa, bu, ilk növbədə, BMT-nin öz nüfuzuna, imicinə mənfi təsir edə bilər. Ona görə də, mötəbər beynəlxalq təşkilatın ədalətli rəy bildirəcəyinə ümid etməyimiz məntiqidir.

Xüsusilə diqqətə çatdıraq ki, məhz Ağdamdan keçərək Əsgəran-Xankəndi istiqamətində hərəkət edən BMT missiyasının məqsədi yerindəcə vəziyyətlə tanış olmaq, sakinlərin humanitar ehtiyaclarını müəyyənləşdirməkdir. Heyətinin tərkibinə təşkilatın müxtəlif qurumlarının nümayəndələri daxil olan missiyanın Qarabağda araşdırmalar aparmasına, faktlara şahidlik edib yekun qərarlar qəbul etməsinə heç şübhəsiz ki, hazırkı dönəmdə xüsusi ehtiyac duyulurdu. Çünki Qərbin bir sıra bəzi mətbuat səhifələrində elə bir fikir formalaşdırılmasına çalışılır ki, guya Qarabağdan Ermənistana gedən erməniəsilli əhali bu torpaqlardan zorla çıxarılır və təzyiqlərə məruz qalır. Məhz bu yalanları ifşa etmək üçün Azərbaycan tərəfi də BMT missiyasını illərlə gələ bilmədikləri bu torpaqlara dəvət edib. Dəvət edib ki, həmin missiya gəlib özü əyani şəkildə olanları müşahidə edib doğru-düzgün rəyin, qərarın nədən ibarət olmasını bəyan etsin.

Əlbəttə ki, qələbəmizin bu dəfə də həzm edilməyəcəyini bilirdik və ermənilərin, onların lobbilərinin dünyaya səs salaraq qara-qışqırıq qoparacağını, reallıqları təhrif edərək, həqiqəti əks etdirməyən informasiyalarla, qarayaxmalarla hayların hay-küy qoparacağını, bununla da ölkəmizə qarşı hansısa beynəlxalq təzyiqin edilməsinə nail olmaq üçün atacaqları addımlar gözlənilən idi. Çünki eyni tərz, eyni davranış, eyni propaqanda 44 günlük Vətən müharibəsindən sonra da müşahidə olunmuşdu. Ancaq bizə qarşı olan bu informasiya terrorunu da dəf etməyi bacarırıq və bundan sonra da bacaracağıq. Elə bu səbəbdən də BMT missiyasının bu gəlişinin əhəmiyyəti, rolu danılmazdır və missiya reallıqların əksini, ermənilərin iddia etdikləri absurd məqamları əks etdirən rəyi verə bilməz. Çünki sözügedən missiya özü də Azərbaycanın Qarabağ iqtisadi rayonunda özbaşına deyil və nəzarət də, bizim tərəfimizdən onların özlərini belə müşahidə edənlərin olması da mütləqdir və müşahidələrin hamısı fiksə olunandır. Missiya elə-belə, gəzinti üçün Qarabağ ərazisinə gəlməyib və vizual müşahidələrlə kifayətlənərək gediləcəyini, sonra da missiyanın gedib Avropada istədiyi şəkildə, yəni hansısa ədalətsiz, absurd rəy bildiriləcəyini düşünmək sadəlövhlük olar. Çünki çəkilişlər hər iki tərəfin iştirakı ilə birgə aparıldığı halda, nəyi isə danmaq, əksini iddia etmək mümkünsüzdür və effektinin böyük olacağını da tezliklə görməliyik. Məhz missiyanın gəlişindən, reallıqları müşahidə və fiksə etməsindən sonra Azərbaycanın əleyhinə olan istər təşkilatlar, istər qurumlar, istərsə də mediaya qarşı bizim arqumentlərimizin yetərli və cavablarımızın daha tutarlı olacağı şübhə doğura bilməz.

Heç şübhəsiz ki, missiya heyəti onu da artıq müşahidə edib ki, BMT-nin 4 qətnaməsini Azərbaycan özü yerinə yetirib. Heç bir beynəlxalq təşkilat, xüsusən də ATƏT kimi məsələ ilə bağlı mükəlləf olan qurum belə kömək etmədən məsələnin həlli ölkəmizin öz gücü və qüdrəti ilə həll olunub. Hətta 44 günlük müharibənin məntiqi nəticəsindən, qələbəmizdən və Ermənistan tərəfinin rüsvayçı məğlubiyyətindən sonra, 2020-ci ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın 4-cü maddəsində erməni qeyri-qanuni silahlı birləşmələrinin ərazilərimizi tərk etməsi barədə qeyd olunanlara da Ermənistan tərəfi əməl etməyib, buna beynəlxalq təşkilatlar da, üçüncü tərəflər də kömək etməyib və həmin qeyri-qanuni silahlıların tərksilah edilməsi, silahı yerə qoyub təslim olmaları, ərazilərimizi tərk etmələri Azərbaycan tərəfindən təmin edilib və bunu da BMT missiyasının görmüş olması lazımlı, vacib məqamlardır. İndi məhz BMT kimi mötəbər quruma xatırlatmağın yeridir ki, bağlanan beynəlxalq müqavilələr Ermənistan tərəfindən yerinə yetirilmir və yerinə yetirmələri üçün də heç bir beynəlxalq təşkilatın sanksiyası ilə belə bu işğalçı ölkə qarşılaşmır. Eyni zamanda, həmin mötəbər qurumdan soruşmaq lazımdır ki, əgər beynəlxalq müqavilələr, beynəlxalq təşkilatların qərarları Ermənistan tərəfindən yerinə yetirilmirsə, niyə həmin qətnaməni, bəyanatın müddəalarını həyata keçirməyən dövlətə, işğalçı ölkəyə sanksiyalar tətbiq olunmur?

Bütün bu sadalananlar təsdiq edir ki, Azərbaycan BMT missiyasını dəvət etməklə, ilk növbədə, şəffaflığı təmin etdi və missiya heyətinin müşahidələr aparması üçün yaradılan şəraitlə ölkəmiz özünün xoş niyyətini, humanistliyini nümayiş etdirdi. Həm də nümayiş olundu ki, bizim üçün gizlədiləcək heç nə yoxdur və ərazilərimizə gələrək vəziyyətlə tanış olmaq istəyən istənilən missiyanın, təşkilatın, qurumun bütün suallarına cavab verməyə hazırıq və bizim üçün cavabı olmayan heç bir sual yoxdur. Bununla həm də bəyan edildi ki, hansısa bir qurum, təşkilat, hətta hansısa bir ölkə Qarabağla bağlı vəziyyətin necə, daha doğrusu reallığın nədən ibarət olduğunu bilmək və bu barədə rəy vermək istədiyi zaman, gəlib reallıqlarla bağlı yerindəcə tanış ola və Azərbaycanın heç nəyi gizlətmədiyinə, şəffaflığı təmin etdiyinə hamı əmin ola bilər. Elə məhz bu şəffaflığın fonunda BMT kimi mötəbər qurumun, təşkilatın missiyası əmin oldu ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda məskunlaşan erməniləri çıxarmaq kimi bir niyyətimiz yoxdur və onlara da heç bir təzyiq, yaxud təsir göstərilmir. Əmin oldu ki, qərar qəbul etmək onların öz ixtiyarlarına buraxılıb və köç etdikləri zaman da onlara nəinki maneçilik yaradılmır, əksinə, köçüb gedənlərin hansısa ehtiyacları olduğu zaman bütün bunlar qarşılanır da. Eyni zamanda onlara əyan oldu ki, bütün bunların fonunda əgər erməniəsillilər bizə məxsus əraziləri tərk edirlərsə, deməli, onlar Azərbaycan bayrağı altında yaşamaq istəmirlər. Həm də bunu müəyyən etmiş oldular ki, məhz bu qədər humanistliyin fonunda onlar Azərbaycan bayrağı altında yaşamaqdan imtina edirlərsə, ölkəmizin ərazilərini tərk edirlərsə, deməli, onlara təzyiq göstərən, təsir edən Azərbaycan tərəfi yox, elə Ermənistan hakimiyyəti və Qarabağdakı separatçı rejimdir. Deməli, hansısa qondarma və dırnaqarası ”etnik təmizləmə” barəsində söhbət belə gedə bilməz və BMT missiyası bu gəlişi ilə bir daha əmin olmalıdır və əmin də oldu ki, Ermənistan tərəfi yenə də hansısa şou düzəltmək niyyətindədir və erməniəsillilərin Qarabağdan köç etmələrinə onların ən azından təhrik edilmələri növbəti oyunlarıdır.

***İnam Hacıyev***




# Gəncə terroru:

## dinc sakinlərə yaşadılan faciələr

Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizmin acı nəticələrini Azərbaycan xalqı zaman-zaman yaşamışdır. Tarixdən məlumdur ki, ”Böyük Ermənistan” xülyası ilə yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib. 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32 kənd, Eçmiədzin qəzasında 84 kənd, Nor-Bəyazid qəzasında 7 kənd, ümumiyyətlə, 197 kənd dağıdılmış, sakinlərin bir qismi qətlə yetirilmiş, digər bir qismi isə öz doğma ev-eşiklərindən didərgin düşmüş, əmlakları talan olunmuş, evləri isə yerlə yeksan edilmişdir. Rəsmi mənbələrə əsasən, 1918-ci il soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Bu və ya digər terror aktları bir daha göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçirmişdilər.

### TERROR AKTLARI - SƏNƏDLƏR VƏ RƏQƏMLƏR

Ötən əsrin 90-cı illərində ermənilər tərəfindən bir-birinin ardınca terror aktları törədiblər. Bu qırğın nəticəsində 613 nəfər həlak olub, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın və 70 nəfəri qocalar idi. 8 ailə tamamilə qətlə yetirilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 487 nəfər yaralanıb ki, onlardan 76 nəfəri uşaq idi. Faciə zamanı 1275 nəfər əsir götürülüb, 150 nəfər itkin düşüb. Xocalıdan əvvəl və sonra da əzəli torpaqlarımızda ermənilər tərəfindən neçə-neçə faciə törədilib. 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpü partladılması nəticəsində cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, terror, suiqəsd və hücum aktları kifayət qədər törədilib. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndidə ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və suiqəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən ”PAZ-3205” dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. 1994-cü il 18 mart tarixində Xankəndi səmasında erməni terrorçuları tərəfindən İranın Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 36 nəfər həlak olmuşdur.

44 günlük Vətən müharibəsində xalqımız ermənilərin təcavüzkar siyasəti ilə bir daha üz-üzə qaldı. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu.




### 4 OKTYABR 2020-Cİ İL TERRORU



4 oktyabr 2020-ci il tarixində birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri birinci dəfə erməni terroristləri tərəfindən vuruldu. Onların hədəfləri mülki insanlar, yaşayış binaları oldu. Hücum nəticəsində bir nəfər öldü, 30 nəfər isə yaralandı. Bu raket hücumu müharibənin getdiyi ərazidən kənara edilən ilk ciddi hücum idi. Bu, yaşadığımız yüzillikdə bəşər sivilizasiyasının yüksək nöqtəsində baş verəmiş hadisədir. Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. 2020-ci ilin oktyabr ayında Gəncə şəhəri Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalanıb. Bombalanmalar 2020-ci il Vətən müharibəsi dövründə baş vermişdir. İkinci raket hücumu isə 5 oktyabrda baş vermişdir. Hücum nəticəsində 3 mülki şəxs yaralanıb. Üçüncü raket hücumu oktybarın 8-də baş vermişdir. Həlak olan və yaralanan olmamışdır. Dördüncü raket hücumu isə 11 oktyabrda baş vermiş və nəticədə 10 mülki şəxs şəhid olmuş və 40-dan çox insan yaralanmışdır. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş vermiş və atəşkəsin pozulması ilə nəticələnmişdir. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş vermişdir. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla. 16 nəfər Şəhid olmuş, 55 nəfər isə yaralanmışdır. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəymişdir.

Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində təkcə Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdı. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir.

### ”MÜLKİ ŞƏXSLƏRƏ, ƏLİYALIN İNSANLARA QARŞI QƏDDARLIQ GÖSTƏRMƏK ONLAR ÜÇÜN ADİ BİR ŞEYDİR”

Mülki əhaliyə atəş açmaq isə bütün beynəlxalq konvensiyalarla qadağan olunur və yolverilməzdir. Ona görə də, Ermənistanın beynəlxalq qurumlar qarşısında cavab verməlidir. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın, dünya KİV-lərinin döyüş meydanında iştirak etdiyi bir zamanda baş verir. Moskvada imzalanan humanitar atəşkəs rejimindən sonra Ermənistan silahlı qüvvələrinin qədim Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə və yaşayış məhəllələrinə aramsız atəşlər yağdırıldı. Çoxlu dağıntılar oldu, insanlar həlak oldu, yaralandı. Onların arasında uşaqlar və qadınlar da var. Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu bir daha Ermənistanın günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması onun faşizm xislətini və cinayətkar mahiyyətini bir daha sərgiləyir. Ermənistanın mülki obyektlərə və yaşayış evlərinə raket hücumu beynəlxalq sənədlərə ziddir və Ermənistan bu hərəkətə görə cavab verməlidir. Gəncədə yaşanılan matəm erməni təcavüzkarlığının əsl siması idi. Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, Ermənistanın bu çirkin siyasəti anlaşılandır: ”Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür.”

### AZƏRBAYCAN XALQININ İRADƏSİNİ HEÇ VƏCHLƏ QIRMAQ OLMAZ

Gəncədə gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışır. Yatmış insanlara qarşı törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Azərbaycan Prezidenti İlham Əliyev demişdir ki, bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. ”Biz düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşacağıq, daha əzmlə, iradə ilə öz torpaqlarımızı azad edəcəyik və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldıracağıq”.

Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı və tarixi ədalət bərpa olundu. Təcavüzkar ermənilərin çirkin siyasətləri iflasa uğradı.

***Zümrüd BAYRAMOVA***

# Gecikmiş missiya

**Azərbaycan hökuməti Xankəndidə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşır. Bu barədə BMT-nin Azərbaycanın Qarabağ regionuna səfəri ilə yaydığı bəyanatda deyilir. Missiya burada yerli əhali və digər şəxslərlə söhbət edib, eləcə də səhiyyə və təhsil müəssisələrindəki vəziyyətlə yerindəcə tanış olublar. Nümayəndələrin Xankəndi şəhərində getdikləri yerlərdə mülki və ictimai infrastruktura, o cümlədən xəstəxana, məktəb, yaşayış binaları, mədəni və dini obyektlərə heç bir ziyan dəyməyib.**

Missiya həmçinin Azərbaycan hökumətinin şəhərdə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşdığını müşahidə edib. BMT təmsilçiləri fəaliyyət göstərən heç bir mağaza görməyib. Missiyaya son atəşkəsdən sonra dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı nə yerli əhalidən, nə də digər




rakılıq faktı aşkar edilməyib.

Azərbaycan Qarabağda konstitusiya quruluşunun bərpası tədbirlərini başa vurduqdan 5 gün sonra Prezident İlham Əliyev Naxçıvanda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. İlham Əliyev qeyd edib: "Artıq Azərbaycandan Qarabağ bölgəsinə orada yaşayan erməni əhaliyə humanitar yardımın çatdırılmasına başlanılıb. Yanacaq, o cümlədən dizel yanacağı, benzin, ərzaq, dərman və digər humanitar yardımlar verilir. Bu bir daha onu göstərir ki, Qarabağ bölgəsində yaşayan insanlar milliyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşıdır. Bu insanların təhlükəsizliyi və hüquqları Azərbaycan dövləti tərəfindən təmin olunacaq".

Prezident Qarabağda yaşayan erməni əhalinin Azərbaycan cəmiyyətinə inteqrasiyası prosesinin uğurla davam edəcəyinə əminliyini ifadə edib. Lakin separatçıların rəhbəri qondarma qurumun ləğvi haqqında "fərman" imzalayandan sonra ermənləri Qarabağdan tələsik köçməyə məcbur ediblər. Bundan xeyli əvvəl isə Azərbaycan Prezidenti azərbaycanlı qaçqınların Qarabağa qayıdışının başlandığını elan edib: "Artıq 2 mindən çox insan bölgəyə köçüb. Ümumilikdə 30 il ərzində 1 milyona yaxın azərbaycanlı Qarabağı tərk edib. İndi öz doğma yurdlarına qayıtmaq üçün səbirsizliklə gözləyirlər. İnsanlar Bakıdan, ölkənin ikinci böyük şəhəri Sumqayıtdan, Gəncədən gəlirlər. Onlar şəhərlərdən kəndlərə gəlirlər".





həmsöhbətlərdən şikayət daxil olmayıb. BMT-nin Azərbaycandakı nümayəndəliyi regiona müntəzəm səfərlərini davam etdirməyi planlaşdırır.

Qeyd edək ki, oktyabrın 1-də səhər saatlarında BMT missiyasının üzvləri yerlərdə vəziyyətlə tanış olmaq və yerli sakinlərin humanitar ehtiyaclarını öyrənmək üçün Qarabağa gəliblər. Bir gün əvvəl BMT baş katibinin nümayəndəsi Stefan Düjarrik bildirmişdi ki, təşkilat nümayəndələri 30 ildir ki, regionda olmayıblar. Eyni zamanda, Azərbaycan Xarici İşlər Nazirliyi missiyanın Bakının dəvəti ilə gəldiyini vurğulayıb. Onlar ümid edirlər ki, səfər sayəsində dünya Azərbaycan hakimiyyətinin regiondakı humanitar fəaliyyəti ilə tanış olacaq. Qarabağın bir sıra şəhərlərində, o cümlədən Xankəndidə Azercell, Bakcell və NAR operatorları artıq rabitə xidmətləri göstərir. LTE texnologiyası da mövcuddur. Şuşada yeni məktəb istifadəyə verilmək üzrədir. Bundan başqa, Azərbaycan erməni əhalisinə tibbi və humanitar yardımın göstərilməsi ilə bağlı bütün faktları diqqətlə qeydə alır. Məsələn, ölü sayının çox olduğu yanacaq çəninin partlamasından sonra Bakı zərərçəkənlərə kömək üçün bir neçə yanğınsöndürən və təcili yardım maşınları göndərdi.

Öz növbəsində Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil Səbinə Əliyeva bildirib ki, respublikada ermənilərin hüquqları ölkənin digər vətəndaşlarının hüquqları kimi qorunacaq. "Hər bir ölkə vətəndaşı kimi Qarabağda yaşayan erməni əsilli vətəndaşlar da hüquq və azadlıqlarının təmini ilə bağlı hər hansı problem yarandıqda, 24 saat fəaliyyət göstərən "916" zəng mərkəzinə zəng edərək Ombudsmanla əlaqə saxlaya bilərlər", - deyə Əliyeva əmin edib.

Bu arada Ermənistan hakimiyyəti Azərbaycana qarşı Beynəlxalq Ədalət Məhkəməsində iddia qaldırıb. İrəvan hesab edir ki, guya Bakı Qarabağdakı erməni əhaliyə qarşı irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanı pozub. Eyni zamanda, o, bir tərəfdən azərbaycanlıların erməniləri birbaşa və ya dolayısı ilə öz ərazilərindən sıxışdırıb çıxarmağa son qoymasını, digər tərəfdən isə bölgəni tərk etmək istəyən hər kəsə mane olmamasını istəyir. Ermənistan hakimiyyəti də Azərbaycanın Qarabağın indiki və keçmiş siyasi və hərbi nümayəndələrinə qarşı tədbirlərdən çəkinməsini istəyir. Bundan əlavə, İrəvan Bakıdan "təhlükəsizlik qüvvələrini bölgədəki mülki obyektlərin ərazisindən çıxarmağı və erməni irsinə, o cümlədən Osmanlı dövründə erməni soyqırımı qurbanlarının xatirə abidələrinə qəsd etməməyi" tələb edir. Çox absurd iddiadır, əvvəla Azərbaycan ordusunun hərbi hissələri heç bir mülki binalarda yerləşdirilməyib, ikincisi və ən əsası, Osmanlı dövründə baş verməmiş və Azərbaycan tərəfindən də "qondarma" damğası vurulmuş bir hadisəyə aidiyyəti olduğu bildirilən "abidə"nin torpaqlarımızda mövcudluğuna göz yummağı bizdən tələb etmək heç bir məntiqə sığmır.

İrəvan iddia edir ki, guya Qarabağda heç bir erməni qalmayıb. "Oktyabrın 1-də səhər saatlarında 100 min 483 nəfər Qarabağı tərk edib". Bakıda isə bunu cəfəngiyyat adlandırır və bunun texniki cəhətdən də mümkünsüz olduğunu bildirirlər. Qısa müddət ərzində 100 min nəfərin, həm də öz avtomobilləri ilə dağ yollarından keçməklə, üstəlik də sərhəd keçid məntəqəsindən istifadə etməklə Ermənistana getmələri qeyri-mümkündür, növbəti erməni yalanıdır. Bəs onda, Ermənistan hakimiyyətini nə vadar edir ki, Qarabağdan könüllü şəkildə gedənlərin sayını bu qədər şişirtsin? Kiçik araşdırma kifayət edir ki, bunun səbəbini öyrənəsən. Əvvəla, bu "fakt" vasitəsilə Azərbaycanı cavabdehliyə cəlb etmək, ikincisi beynəlxalq donor təşkilatlarından, ayrı-ayrı ölkələrdən köçkünlərin ehtiyacını ödəmək üçün yardımların həcmini artırmaq, bol para toplamaq.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın iddiasını tamamilə əsassız və absurd adlandırıb. O, xüsusilə qeyd edib ki, İrəvanın tələbi Beynəlxalq Məhkəmənin sözügedən iş üzrə əvvəlki qərarlarına məhəl qoymur və azərbaycanlılara qarşı irqi nifrətin qızışdırılması və təbliğinə yönəlib. Hacızadə iddianı Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsd cəhdlərindən əl çəkmədiyinin sübutu kimi qiymətləndirib. Bununla belə, Azərbaycan Prezidenti İlham Əliyev hələ də Ermənistanla sülhün mümkünlüyünü rədd etmir. Onun sözlərinə görə, bu, İrəvandan baş nazir Nikol Paşinyanın 2019-cu ildə verdiyi "Qarabağ Ermənistandır" bəyanatından sonra baş vermiş hadisələri düzgün təhlil etməyi tələb edir. "Biz Cənubi Qafqazın gələcəyini, bütün regionun gələcəyini belə görürük. Düşünürəm ki, qonşularımız və beynəlxalq aktorlar bizim tərəfimizdən yalnız konstruktiv yanaşma görəcəklər", - deyə İlham Əliyev yekunlaşdırıb.

Erməni politoloq Arşaluys Mqdesyan bildirib ki, beynəlxalq təşkilatlara indiki müraciət İrəvana heç bir maddi fayda gətirməyəcək, çünki əvvəlki cəhdlər nəticə verməyib. "Məsələn, əvvəllər Bakı BMT məhkəməsinin, Rusiya, ABŞ və Avropa İttifaqının Laçın yolunun qarşısının alınması ilə bağlı çağırışına məhəl qoymadı. İndi nəyinsə dəyişəcəyi ehtimalı yoxdur. Çox güman ki, bu yolla Ermənistan Azərbaycanın Qarabağdakı cinayətləri ilə bağlı dosye hazırlayır ki, məhkəməyə müraciət etsin", - ekspert hesab edir. Qarabağdakı beynəlxalq missiyaya gəlincə, Mqdesyanın sözlərinə görə, bu, regionda çox gec peyda olub: "Azərbaycan praktiki olaraq Qarabağın öz strukturuna inteqrasiyasına başlayıb".

Bu arada azərbaycanlı politoloq İlqar Vəlizadə bildirib ki, Bakı 30 ildir ki, BMT missiyasının Qarabağa səfərini reallaşdıra bilməyib, çünki bunun üçün heç bir siyasi şərait yox idi. "İndi Azərbaycan tərəfi qərarlar verir, amma vaxtilə bölgə separatçıların nəzarətində olub. Ümid edirəm ki, BMT missiyası Bakının etnik təmizləmə aparmadığını və ermənilərin Qarabağı könüllü şəkildə tərk etdiyini təsdiq edəcək". Vəlizadə eyni zamanda bildirib ki, indiki hadisələr yüz minlərlə azərbaycanlının Qarabağı tərk etdiyi 1990-cı illərin əvvəllərində baş verənlərlə müqayisə oluna bilməz. "O zaman nə dəhliz, nə sülhməramlılar, nə də beynəlxalq təşkilatlar var idi. İnsanlar irəliləyən ordudan qaçdılar. Bu mənada Bakının İrəvandan daha çox arqumentləri var", - ekspert vurğulayıb.

Azərbaycan hakimiyyəti Qarabağa investisiya qoymağa hazırlaşır. Çin şirkətləri Azərbaycanın əvvəllər elektrik enerjisi olmayan iqtisadi rayonuna elektrik yarımstansiyaları verməyə hazırdırlar. 1992-1994-cü illərdə baş vermiş münaqişə zamanı Qarabağı tərk etmiş bir milyon azərbaycanlı qaçqınöz yurduna, evinə qayıtmağı planlaşdırır. Bakı bildirir ki, regionun reinteqrasiyası uğurla davam edir. BMT-nin oraya gələn missiyası hələlik heç bir nəticə çıxarmayıb. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ermənistandakı nümayəndəsi Kavita Belani isə bildirib ki, bu ərazini tərk edən erməni sakinlərə qarşı zorakılıq faktı aşkar edilməyib.

Azərbaycan Prezidenti söz verib ki, hakimiyyət Qarabağa qayıdan vətəndaşlara təşkilati və maddi köməklik göstərəcək. İlham Əliyev həmçinin əminliklə qeyd edib ki, əgər Ermənistan hökuməti 2019-cu ildə Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır" kimi təxribat xarakterli bəyanatından sonra baş vermiş hadisələri düzgün təhlil edərsə və bundan nəticə çıxararsa sülhü də uzaqda axtarmaq lazım gəlməz. Əlbəttə, Azərbaycan Cənubi Qafqazın gələcəyini, bütün regionun gələcəyini belə görür. Qonşularımız və beynəlxalq aktyorlar bizim tərəfimizdən yalnız konstruktiv yanaşma görəcəklər.

İlham Əliyev İspaniyanın Qranada şəhərində Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü ərəfəsində xatırladıb ki, bu il sentyabrın 20-də biz öz suverenliyimizi tam olaraq bərpa etdik. Beləliklə, bizim torpağımızda artıq nə boz zona, nə qanunsuz obyekt, nə də separatizm var. Hesab edirəm ki, bu güclü siyasi iradənin, Azərbaycan xalqının birliyinin nümayişi, eləcə də Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olması hələ də revanşist ideyalarla yaşayan bütün insanlar üçün siqnaldır. Bütün bunlardan əl çəkməlidirlər.

Bu arada isə məlum olub ki, Ermənistan tərəfi Avropanın 20-dən artıq şəhərlərində, o cümlədən Brüsseldə, Londonda, Roma, Vyana, Stokholm, eləcə də Qranadada "Qarabağa dəstək" aksiyaları keçiriləcək. Halbuki, hər iki ölkə ictimaiyyətinin böyük hissəsi müharibədən çox sülhə üstünlük verir və Qranadada tərəflərin sülh üqavıləsi ətrafında danışıqlar aparacaqlarını düşünürlər. Aksiyalar isə sülhü inkar deməkdir, həqiqəti danmaq, reallıqla barışmamaqdır. Bu isə məğlub Ermənistan üçün heç bir gələcək vəd etmir.

***V.VƏLİYEV***

# Azərbaycan-Türkiyə:

## sarsılmaz qardaşlığa, birliyə doğru!

Türkiyə və Azərbaycan! Bütün cahanı gəzib axtarsan bu iki dövlətin arasında olan dostluq və əməkdaşlığın oxşarını tapa bilmərsən. Çünki bu dövlətlərin dili, dini, mədəniyyəti, adət-ənənəsi, yaşayış tərzi, söykökü eynidir. Tarix boyu bir birinin yanında olan, maddi və mənəvi dəstəyini əsirgərmiyən bu iki qardaş dövlət tarixi Zəfərimizdən sonra imzalanan Şuşa bəyənnamaəsi ilə öz müttəfiqliklərini və dostluqlarını daha da geniş və intensiv formada qurmuşlar. Haqq davamızda hər zaman yanımızda olan və dəstək verən qardaş Türkiyə Cumhuriyyəti bizim bir nömrəli müttəfiqimiz və dostumuzdur. Təməlində milli maraqlar, qardaşlıq, güclü, dəyişilməz iradə dayanan bu birliyi möhkəmləndirən aktiv, çevik siyasət dünya diplomatiyasının tərkib hissəsi olmaqla, böyük əhəmiyyət daşıyır. Ən çətin məqamlarda qarşılıqlı olaraq biri-birinə dəstək göstərib, dünyada və regionda böyük əhəmiyyətə malik qlobal iqtisadi layihələrin həlli üçün hər iki dövlətin potensialından qarşılıqlı istifadə edilməsi ölkələrimizi daha da yaxınlaşdırır. Bu bir həqiqətdir ki, Azərbaycan-Türkiyə birliyinin regional, beynəlxalq müstəvidə eynilik təşkil edən milli maraqları, dövlət mənafelərinə uyğun inkişafı, bu sahədə getdikcə möhkəmlənən aktiv, çevik siyasət dünya diplomatiyasının tərkib hissəsi olmaqla, böyük əhəmiyyət daşıyır. Və AzərbaycanlaTürkiyə arasındakı münasibətlərin bu səviyyədə olmasının bir əsas səbəbi də iki ölkənin dövlət rəhbərlərinin dostluq, qardaşlıq münasibətləridir.



***İLHAM ƏLİYEV:* "Türkiyə lideri dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən ədalətli bəyanatlar verdi"**

***RƏCƏB TAYYİB ƏRDOĞAN:* "Azərbaycan ərazisi olan Qarabağ 30 illik işğaldan sonra azad edilib və haqq yerini tapıb"**

### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TÜRKİYƏ BURADA YOXSA DA, MƏN BURADAYAM VƏ SİZİN CAVABINIZI VERƏCƏYƏM", SÖYLƏMƏKLƏ DÜNYANI MAT QOYMUŞDU, EYNİ ZAMANDA BÜTÜN TÜRK DÜNYASININ ÜRƏYİNİ FƏTH ETMİŞDİ

Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. İllər öncə Ermənistanın qatil rəhbəri Praqada keçirilən, Türkiyənin təmsil olunmadığı "Şərq Tərəfdaşlığı" sammitində "dərə xəlvət, tülkü bəy" yanaşmasından çıxış edərək qardaş ölkənin ünvanına saxta ittihamlar, hədyanlar söyləyəndə Azərbaycan Prezidenti İlham Əliyev "Türkiyə burda yoxsa da, mən burdayam və sizin cavabınızı verəcəyəm", söyləməklə dünyanı mat qoymuşdu, eyni zamanda bütün Türk dünyasının ürəyini fəth etmişdi. Eyni zamanda Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır", "Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq", mövqeyi ilə Türk birliyi mesajını verdi dünyaya.

Bir sözlə, Əliyev-Ərdoğan birliyi və həmrəyliyi, ümumiyyətlə dövlət başçılarının birbirinə "qardaşım" deyərək müraciət etmələri həm xalqlarımız, həm də dünya birliyi üçün əsl nümunədir. Və Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluq və qardaşlığı maraqlar, mənfəətlər üzərində qurulmayıb, quru sözlərdən ibarət deyil, sözdə, əməldə, konkret fəaliyyətdədir.

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan haqqında dediyi fikri bir daha demək yerinə düşər: "Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm".

### TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN TUTARLI SAVAB: "Qarabağ işğaldan azad edilib, haqq öz yerini tutub"

"Azərbaycan ərazisi olan Qarabağ 30 illik işğaldan sonra azad edilib və haqq öz yerini tutub". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə Naxçıvanda keçirilən görüş zamanı mətbuata bəyanatında bildirib ki, bir millət, iki dövlət olaraq əlaqələrimizi və əməkdaşlığımızı hər sahədə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. Türkiyə-Azərbaycan əlaqələri dünyada bənzəri olmayan müstəsna bir mövqededir".

Türkiyə Prezidenti deyib ki, son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılmışdır. Bu fürsətin dəyərləndirilməli olduğuna inanıram. "Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz", - deyən Türkiyə dövlətinin başçısı vurğulayıb ki, bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur. Biz bu borcu yerinə yetirməkdə qətiyyətliyik, səmimiyik.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvanda Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirilən mətbuata bəyanatında Müzəffər Azərbaycan Ordusunu həm tarixi qələbə, həm də mülki şəxslərə göstərdiyi humanitar davranış münasibətilə ürəkdən təbrik edib: "Azərbaycanlı qardaşlarımız Türk millətinin ədalət və mərhəmətini bir daha bütün dünyaya göstərmişlər".

Bir sözlə, Əliyev-Ərdoğan birliyi və həmrəyliyi, ümumiyyətlə dövlət başçılarının birbirinə "qardaşım" deyərək müraciət etmələri həm xalqlarımız, həm də dünya birliyi üçün əsl nümunədir. Və Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluq və qardaşlığı maraqlar, mənfəətlər üzərində qurulmayıb, quru sözlərdən ibarət deyil, sözdə, əməldə, konkret fəaliyyətdədir. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar və dövlət başçımızın dediyi kimi: "Prezident Ərdoğan ilə şəxsi dostluğumuz regional inkişaf və sabitlik baxımından çox mühüm faktordur".

***RƏFİQƏ KAMALQIZI***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.





2023-cü il oktyabr ayının 3-də YAP Hacıqabul rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Hacıqabul rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# Xankəndi: doğma su, doğma işıq, doğma xidmət

**Xankəndidə fəaliyyət göstərən rəsmi orqanların sayı günbəgün artır. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azerenerji, Azərsu və ANAMA bölgədə fəaliyyət göstərir.**



## Ermənilərin reinteqrasiyası ilə Miqrasiya Xidməti məşğul olur

Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı verilən müvafiq tapşırıqlar çərçivəsində Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağ iqtisadi rayonunda fəaliyyətə başlayıblar.

Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ilkin qeydiyyatına dair müraciətlərinin yerində qəbul edilməsi və bununla əlaqədar maarifləndirmə tədbirlərinin yerində təşkili, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları isə sakinlərin sosial-humanitar ehtiyaclarının müəyyənləşdirilməsi ilə bağlı fəaliyyət göstərirlər.

## Azərsu Xankəndi-Laçın yolunda

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsi 26 aprel 2023-cü il tarixində içməli su ilə təmin edilib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin əməkdaşları tərəfindən Həkəri çayının yatağında kaptaj qurğusu yaradılıb, buradan sərhəd-buraxılış məntəqəsinə qədər 200 metr uzunluğunda polietilen borularla daşıyıcı su xətti çəkilib və hidrofor nasosu quraşdırılıb. Hazırda sərhəd buraxılış məntəqəsi fasiləsiz içməli su ilə təmin edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi işğaldan azad olunmuş ərazilərdə strateji obyektlərin dayanıqlı içməli su təminatı məqsədilə Şuşa, Laçın, Kəlbəcər şəhərlərində, Zəngilan rayonu və Hadrut qəsəbəsində fasiləsiz xidmət təşkil edib.

## ANAMA ərazini qarış-qarış yoxlayır

Xankəndi şəhəri ərazisində yerləşən müəyyən inzibati binalarda xeyli sayda partlayıcı qurğular aşkarlanıb. ANAMA-dan verilən məlumata görə, Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən inzibati binalara baxış keçirilən zaman qanunsuz hərbi birləşmələr tərəfindən quraşdırılan tələ qurğular, eləcə də silah-sursat aşkar edilib.

ANAMA əməkdaşları tərəfindən həyata keçirilən əməliyyatlar zamanı ərazinin girişində yerləşən boruların içərisində sürpriz formaya salınmış əl qumbaraları, habelə otaqlarda yerləşən çekməcələrdə, pərdələrin arxasında, hərbi jiletlərin ciblərində, binanın zirzəmisində əl qumbaraları və yüksək partlayış gücünə malik müxtəlif hərbi sursatlardan ibarət tələ qurğuları aşkarlanıb. Eyni zamanda, yüksəklikdən buraxılaraq partlayış törətmək və geniş radiusda qəlpələnmə yaradılması məqsədilə minaatan mərmiləri, qəlpələnən bombletlər, VOQ-17 silah qumbaralarından ibarət improvizə olunmuş partlayıcı qurğulara rast gəlinib. Aşkar edilən tələ qurğular Agentlik əməkdaşları tərəfindən zərərsizləşdirilərək, ərazilərin təhlükəsizliyi təmin edilib

## "Azercell" Xankəndidə

Ağdərə və Xocalıdan sonra Xankəndi şəhəri də "Azercell" şəbəkəsinə qoşulub. Bu barədə işğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturu quran "Azercell Telekom" MMC-dən bildirilib. Xatırladaq ki, hazırda Qarabağda "Azercell"in 100-dən çox LTE texnologiya əsaslı baza stansiyası fəaliyyət göstərir. Mobil operator Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarını, İstisu, Hadrut, Suqovuşan qəsəbələrini, həmçinin Xocavənd və digər rayonların kəndlərini öz şəbəkəsi ilə əhatə edir. Laçın rayonunda lider mobil operator 15-dən çox baza stansiyası quraşdırıb.

"Azercell" bütün ölkə ərazisi ilə yanaşı, işğaldan azad olunmuş torpaqlarda da yeni nəsil şəbəkənin genişləndirilməsi və bu ərazilərə qayıdacaq əhalinin qabaqcıl kommunikasiya xidmətləri ilə təmin edilməsi istiqamətdə işlərini davam etdirir.

## Doğma işığa qərq olan Xankəndi

2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə keçirilmiş görüşdə müzakirə edilən məsələlərin həlli istiqamətində təxirəsalınmaz işlər davam etdirilir. Xankəndi şəhərinin Ermənistanın enerji sistemindən ayrılaraq Azərbaycan enerji sisteminə qoşulması təmin edilib.

Qeyd edək ki, hələ 2021-ci ildə "Azerenerji" tərəfindən tikilən və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Şuşa" yarımstansiyasında Xankəndi üçün ehtiyat yuvalar quraşdırılmışdı. 2023-cü il sentyabrın 19-dan etibarən "Azərenerji" tərəfindən "Şuşa" yarımstansiyası yaxınlığında əlavə 110 kV-luq yüksək gərginlikli dayaqların quraşdırılmasına və Xankəndi xətti ilə əlaqələndirilməsi işinə başlanılıb. Aparılan işlər nəticəsində artıq proses yekunlaşıb. Paralel olaraq "Azərenerji" və "Azərişıq" əməkdaşları ötürücü və paylayıcı şəbəkəni, mühafizə sistemlərini təftiş etdikdən sonra xəttə gərginlik verilib. Artıq Xankəndidə Azərbaycan işığı yanır.

***Lalə Mehralı***

# YAP Goranboy rayon təşkilatının yeni təyin olunmuş sədri ictimaiyyətə təqdim edilib





**Oktyabrın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Goranboy rayon təşkilatının yeni təyin olunmuş sədri Samir Qocayev ictimaiyyətə təqdim edilib.**

Goranboyda keçirilən təqdimat mərasimindən əvvəl tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində yerləşən abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev bildirib ki, Azərbaycan xalqının böyük inam və etimadını qazanaraq ümumxalq və qələbələr partiyasına çevrilən Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçib, tarixi uğurlara imza atıb.



YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Ramil Mirzəyev partiyanın VII qurultayından ötən dövr ərzində həyata keçirilən işlərin əhəmiyyətindən bəhs edib.

Sonra partiyanın Goranboy rayon təşkilatının sədri Samir Qocayev ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib. YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev çıxış edərək təşəkkürünü bildirib, göstərilən etimadı layiqincə doğrultmağa çalışacağını vurğulayıb.

Partiya fəalları və ictimaiyyət nümayəndələrinin çıxışlarında isə vurğulanıb ki, müstəqillik dövrünün ən möhtəşəm hadisələri və tarixi nailiyyətləri müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Onun layiqli davamçısı olan Prezident İlham Əliyevin adı ilə bağlıdır. Qeyd edilib ki, tarixi uğurlarımızda Yeni Azərbaycan Partiyasının xüsusi imzası var.

# “Peşə təhsilli şəxslər var ki, onlar ali təhsillilərdən daha çox qazanır”









## Təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndinin SİA-ya verdiyi müsahibəsini təqdim edirik:

***- Elçin müəllim, məlumdur ki, az bal toplamaq ehtimalı olanlar daha çox 5-ci ixtisas qrupuna üz tutur. Elə suallar da daha çox bu yöndən olacaq. Bəs, az bal toplayanlar, yaxud az bal toplayacağını düşünən abituriyentlər 5-ci ixtisas qrupundan necə yararlana bilər?***

- 5-ci ixtisas qrupuna qəbul olmaq istəyən abituriyentlər minimal müsabiqə şərtini ödəməlidirlər. Əgər onlar ən azı 60-70-80 bal toplayıblarsa, mütləq qabiliyyət imtahanı verməlidirlər. Məsləhətim odur ki, çalışıb 100 bal üzərində nəticə əldə etsinlər ki, daha real qəbul olmaq imkanları olsun.

***- 5-ci ixtisas qrupunda hansı ixtisaslar var?***

- Burada qabiliyyət tələb edən ixtisaslar var. Ümumiyyətlə, buradakı ixtisasların demək olar ki, hamısı qabiliyyət tələb edir. Yalnız istisna universitetlər var ki, onlar qabiliyyət tələb etmir. Bura əsasən, dizayn ixtisası üzrə olanlar aiddir. Burada keçid balları 170-180, hətta 200 üzəri qeydə alınır. Yəni, bu ixtisasları yazmaqdansa, yazmamaq daha məqsədəuyğundur. Amma kimsə bu ixtisasları seçmək istəyirsə, 200-250 bal toplamalıdır.

***- 5-ci ixtisas qrupuna hansı fənlərdən hazırlaşmaq lazımdır?***

- Burada 3 fəndən hazırlaşırlar. Bu da Azərbaycan dili, riyaziyyat və xarici dildir.

***- 5- ci ixtisas qrupunda hansı ixtisaslar var?***

- Burada, əsasən, Təsviri incəsənət müəllimliyi, Bədən tərbiyəsi müəllimliyi, məşqçilik, dizaynerlik, aktyorluq, rəqs müəllimliyi və s. mövcuddur.

***- Maddi baxımdan 5-ci ixtisas qrupu hansı mənada valideynlərə sərf edir?***

- Valideyn burada övladını cəmi 3 fəndən



hazırlığa yollayır. Bu zaman da xərclər minimal olur. Həmçinin, 5-ci ixtisas qrupunda ilik təhsil haqları daha münasibdir.

***- Bəs, 5-ci ixtisas qrupunda oğlanlar və qızlar üçün uyğun olan hansı peşələr var?***

- Burada oğlanlar üçün əsasən dizaynerlik, bədən tərbiyə müəllimliyi, məşqçilik, ümumi fiziki hazırlıq, aktyor, heykəltaraşlıq və s. Qızlar üçün isə təsviri incəsənət müəllimliyi, dizaynerlik, rəngkarlıq, qrafika və digər bu qəbildən olan ixtisaslar daha uyğundur.

***- Bilik səviyyəsi aşağı olan abituriyentlər hansı ixtisas qrupuna hazırlaşsa nəticə əldə edə bilər?***

- Bu tip abituriyentlərin 2 və 5-ci ixtisas qrupuna hazırlaşması daha məqsədəuyğundur. Yəni, buradan universitetə qəbul olmaq ehtimalları daha yüksəkdir.

***- Sizcə, indiki zamanədə diplom şərtdirmi? Yoxsa hər hansı peşəyə diplomsuz yiyələnməklə də uğur qazanmaq olar?***

- Əlbəttə, diplom çox vacibdir. Üstəlik, diplomla bərabər ixtisasını bilmək də önəmlidir. Əgər diplomu olan şəxs öz ixtisasını bilmirsə, bu zaman diplom heç bir şeyə gərək deyil.

Universitetə qəbul olmayanlar peşəyə yönəlsələr daha yaxşı olar. Məsələn, bərbərlik, aşpazlıq, çilingərlik və s. Bilirsiniz ki, Peşə Təhsili üzrə Dövlət Agentliyi fəaliyyət göstərir və agentliyin tabeliyində bir neçə peşə məktəbi-litseyi var. Universitetə qəbul olmayan abituriyentlər bu sahələrə də yönəlsələr gələcəkləri üçün yaxşı karyera qura bilərlər.

***- İndiki repetitor qiymətləri normal ailə büdcəsinə uyğundurmu?***

- Təbii ki, uyğun deyil. Abituriyentlər 6-7 fəndən hazırlaşır. Valideynlər ən azı ayda 450-500 manat övladının hazırlıqlarına pul ödəyir. Məncə repetitor qiymətlərinin bu qədər baha olması doğru yanaşma deyil.

***- Bəzi müəllimlər var ki, çox yüksək qiymətə ixtisas seçimi üçün kodlaşdırma edir. Sizcə, yüksək qiymətə kodlaşdırma edən müəllimlər daha etibarlıdır? Bu baha qiymət haradan qaynaqlanır? Bu barədə siz nə düşünürsünüz?***

- Təbii ki, ixtisas kodlaşdırması ilə bağlı hər hansı bir xidmət göstərilirsə, bunun da müəyyən bir ödənişi olmalıdır.

***- Polis Akademiyası 5-ci qrupda varmı?***

- Xeyr, 5-ci qrupda bu yoxdur.

***- Bəs, 2-ci ixtisas qrupu asandır?***

- Məncə 1 və 2-ci ixtisas qrupuna qəbul olmaq daha asandır. Digər qruplar bir qədər çətindir.

***- Gənclər hansı ixtisasa qəbul olmaqla daha asan iş tapa bilər?***

- Hesab edirəm ki, burada əmək bazarında İT və pedaqoji yönümlü olan ixtisaslara tələbat var. Gənclər bu sahələrə qəbul olsa, gələcəkdə işlə bağlı bir problem yaşamayacaqlar.

***- Sizcə, sadəcə, sözdə ali təhsilmi, yoxsa yaxşı pul qazana biləcəyimiz bir peşə daha yaxşıdır?***

- Hər kəsin ali təhsil almaq kimi bir öhdəliyi yoxdur. Əgər kimsə ali təhsil ala bilmirsə, peşə təhsili də ala bilər. Elə peşə təhsilli şəxslər var ki, onlar ali təhsillilərdən daha çox gəlir əldə edir, yaxud qazanırlar.

***Ayşən Vəli***



# Azərbaycan beynəlxalq tədbirlərin məkanıdır

## Prezident İlham Əliyev: "Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub"

Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələri sırasındadır. Ölkəmiz öz gözəlliyinə, inkişafına və digər keyfiyyətlərinə görə diqqət mərkəzindədir. Ölkəmizdə son illər ardıcıl olaraq çox nüfuzlu beynəlxalq tədbirlərə, toplantılara ev sahibliyi edir. Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin dövlət maraqlarımıza uyğun formada keçirilməsi də təqdirəlayiqdir.

Siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, eləcə də, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində nailiyyətlər Azərbaycanın qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. Orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biri olan Azərbaycan orbitə öz peyklərini çıxara bilib, Belə ki, "Azerspace-1" telekommunikasiya peyki, "Azersky" müşahidə peyki və "Azərspace". Sözsüz ki, bu uğurlar Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətin məntiqi nəticəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. 2010-cu ildə dövlət başçısı tərəfindən "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı. Həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi. Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn "Azərspace-1" Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin daha bir göstəricisidir. İstismar müddəti 15 il olan "Azərspace-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Bu peyk iqtisadi cəhətdən də səmərəlidir,

### "Azərbaycanda kosmik sahəni inkişaf etdirməyə davam edirik"

"Bu gün Bakıda keçirilən Konqres Azərbaycanda kosmos sənayesinin, aparıcı texnologiyaların inkişafına və onun müasirləşdirilməsinə töhfə verəcəkdir". Bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında deyib. Müasirləşmənin Azərbaycanın gələcəklə bağlı baxışlarını, gündəliyini və planlarını əks etdiyini vurğulayan dövlətimizin başçısı bildirib:"Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub, dostların qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə xidmət edib".

Azərbaycan Prezidenti çıxışında ölkəmizin reallıqlarına nəzər salarkən, ölkəmizin Avropa İnstitutları ilə əməkdaşlığının da uğurla inkişaf etdiyini diqqətə çəkib, "Avropa İttifaqının bir neçə üzvü ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb. Bu, onu nümayiş etdirir ki, bizim xarici siyasətimiz açıqdır, əməkdaşlığa yönəlib və daha geniş regional inkişafa xidmət edir".

Azərbaycanın iki mühüm beynəlxalq təsisatın İƏT-in və Avropa Şurasının üzvü olduğunu xatırladan dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan azsaylı ölkələrdən biridir ki, hər iki təsisatın üzvüdür. Bu iki vacib təşkilat 100-dən artıq ölkəni birləşdirir".

Bu gün paytaxt Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi növbəti uğurumuzdur, Konqresin Azərbaycanda yüksək səviyyədə təşkili üçün böyük hazırlıq işləri görülüb, 100-dən artıq ölkədən 5 mindən çox nümayəndənin iştirakı tədbirə verilən önəmin göstəricisidir, Bu tədbir indiyədək keçirilmiş digər konqreslərlə müqayisədə iştirakçıların sayı və tərkibi baxımından eyni səviyyədədir, hətta bəzi göstəricilərə görə onlardan da üstündür.

Qeyd edək ki, altmış səkkiz ölkədən 398 üzvü birləşdirən Beynəlxalq Astronavtika Federasiyası dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Hələ Sovet İttifaqında ilk və yeganə Konqres Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanda Bakı şəhərində keçirilmişdir. Bu tədbirdən təxminən 6 ay sonra Azərbaycanın kosmik sənayesinin əsasları qoyulmuşdur. Təbii ki, hər zaman olduğu kimi Azərbaycan bu dəfə də beynəlxalq tədbirə öz təcrübəsindən, ölkəmizdəki əmin-amanlıqdan yararlanaraq Konqresi Azərbaycanda ən yüksək səviyyədə təşkil edib.

***Zümrüd BAYRAMOVA***

# MEDİA-nın həyata keçirdiyi layihənin açılışı olub

Medianın İnkişafı Agentliyinin həyata keçirdiyi "Rəqəmsal xəbərlərin oxunaqlılığının artırılması üçün müasir strategiyalar" layihəsinin açılış mərasimi olub. SİA xəbər verir ki, tədbirin açılışında çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media sahəsində tendensiyaların tez-tez dəyişdiyi və yeni alətlərin aktuallaşdığı rəqəmsal qloballaşma prosesləri fonunda xəbər saytlarının dinamik trendlərə uyğunlaşmasına, oxucuların marağını cəlb etmək və oxucu kütləsini saxlamaq üçün effektiv kontent və marketinq strategiyaları formalaşdırmasına zərurət yarandığını vurğulayıb.



Bildirilib ki, layihənin keçirilməsində əsas məqsəd rəqəmsal xəbərlərin oxunaqlılığının artırılması, bununla da xəbər saytlarının oxucu kütləsinin əhatə dairəsinin genişləndirilməsi, bu istiqamətdə mövcud alət və strategiyaların effektiv tətbiqinin stimullaşdırılmasıdır. Tədbirdə çıxış edən "Albayrak" Media Qrupunun tərkibindəki "GZT" rəqəmsal platformasının baş redaktoru Doğukan Gezer layihənin müvafiq sahədə fəaliyyət göstərən media nümayəndələrinin bilik və bacarıqlarının inkişaf etdirilməsi, eyni zamanda sahə üzrə mütəxəssislər, məzmun yaradıcıları, redaktorların iştirakı ilə onlayn medianın inkişafına dair qarşılıqlı fikir mübadiləsi və şəbəkələşmə imkanlarının yaradılması baxımından əhəmiyyətini qeyd edib.





Daha sonra Doğukan Gezerin təlimin ilk hissəsində "Rəqəmsal mediada xəbərin hazırlanma mərhələləri" mövzusunda rəqəmsal xəbərlərdə hekayə nəqli və diqqət cəlb edən başlıqların formalaşdırılması haqqında, Kerim Askerin "Xəbərin cəlbedici təqdim olunması: Şaquli formatda video xəbər təqdimatı" mövzusunda multimedia və interaktiv elementlərdən istifadə edilməsi və diqqət cəlb edən videoların necə seçilməsi və hazırlanması barədə, ən sonda isə Suat Özdemirin "Rəqəmsal mediada proqnozlaşdırma və təhlil" mövzusunda rəqəmsal mənbələrdən əldə edilən datanın analizi və dataya əsaslanan məzmun strategiyalarının tətbiqi istiqamətində çıxışları olub.

Qeyd edək ki, lahiyə iki gün davam edəcək və ümumilikdə 50 xəbər saytının 100-ə yaxın əməkdaşının, həmçinin bir sıra ali təhsil müəssisələri və qurumlardan olan qonaqların iştirakı ilə həyata keçirilir.

# Suqovuşanda yeni həyat

Tarix boyu işğalçılıq siyasətini həyata keçirməyə çalışan Ermənistan azərbaycanlılara qarşı hər bir sahədə düşmənçilik edərək, məkrli planlarını həyata keçirməyə cəhd göstərmişdilər. Onlar təkcə silahlı mübarizə ilə deyil, mənəvi abidələrimizə də zərbə vurmaq yolu ilə işğalçılıq siyasətlərini davam etdiriblər. İkitərəfli mübarizədə siyasi və ideoloji müharibədə erməni kimliyi özünü büruzə vermiş olub. Əlbəttə ki, bu ideoloji müharibə xalqımızın tarixi kökünü saxtalaşdırma məqsədi daşıyıb. Belə ideoloji müharibələrdən biri də xalqımızın yaşadığı torpaqların qədim sakinləri olduğunu göstərən coğrafi adların dəyişdirilməsi ilə müşahidə olunur. Torpaqlarımızın 20 faizi onların əlində olduğu dövrdə bu siyasəti daha "peşəkarlıqla" həyata keçirməyə nail olublar. Yaxın keçmişimizin olayları nəticəsində vətənimizin ayrılmaz hissəsi olan Qarabağ və onun ətrafında baş verən hadisələr zamanı Ermənistanda yaşayan azərbaycanlılar 1988-89-cu illərdə SSRİ dövlətinin birbaşa köməyi və yardımı ilə öz tarixi etnik torpaqlarından deportasiya olundular. Bu tarixin fürsətini əldən verməyən ermənilər qısa bir müddət ərizində - iki ildən sonra Ermənistan prezidentinin fərmanı ilə 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu "rəsmi sənəd" 1991-ci ili əks etdirir.







Bildiyimiz kimi, Ermənistanda türk mənşəli toponimlərinin dəyişdirilməsi iki yüz ildən artıq bir zamanı əhatə edir. Ermənilərin tarixi torpaqları olmadığından, özlərini təsdiqləmək məqsədi ilə müxtəlif məqamlara əl atır, öz tarixi keçmişlərini oğurladıqları və hiylə ilə əldə etdikləri sənədlər üzərində qurmağa çalışırdılar. Nə qədər inandırıcı addımlar atmağa cəhd etsələr də, bunun əsasında hiylə durduğundan saxtakarlıqlarının tarix qarşısında təsdiqinə nail ola bilmirlər. Dəlil və mənbələr əsas götürülərək, göstərilən həqiqətlərə inandırıcı sübut olmadığından, cəhdləri birmənalı qarşılanmır. Bəllidir ki, ermənilər indiki Ermənistan ərazisinə köçürülmüş xalqdır. Bu da bir həqiqətdir ki, XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəlli idi. Tarixçi alimlər ermənlərin Azərbaycan toponimlərinə təcavüzünü dövrlərə bölərək bu istiqamətdə araşdırmalar aparmışdılar. Həmin araşdırmaların qənaətinə əsasən, türk mənşəli toponimlər erməni adları ilə əvəzlənmişdir. Ardıcıl olaraq bir məqsədə doğru addımlayan ermənilərin saxta tarix siyasəti yazılmış mənbələr vasitəsi ilə təqdim edilir. Tarixi mənbələrdə göstərilir ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermişdir: "Addəyişmənin birinci dövründə türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Bu da ərazinin Rusiya tərəfindən işğalı və oraya rusların kütləvi şəkildə köçürülməsi ilə bağlıdır. İlk dəyişdirilən ad isə Cəlaloğlu (Stepanovan) rayonundakı Qaraməhəmməd kəndidir. Onun adı dəyişdirilərək Aleksandrovka qoyulub. "Bu ilk addım" sonralar daha geniş miqyası əhatə edərək günümüzə qədər gəlib çıxmışdır. Bu gün ilk ad dəyişilmə zamanından 200 ildən artıq zaman keçir.

## QƏRBİ AZƏRBAYCANDA KƏNDLƏRİN 95 FAİZDƏN ÇOXUNUN ADI TÜRK MƏNŞƏLİ İDİ

1918-20-ci illərə aid səhifələri xalqımızın başına gətirilən erməni müsibəti, erməni genosidi ilə bütün dünyaya məlumdur. Bakıda, Şamaxıda, Qubada, Naxçıvanda, indiki Ermənistanda minlərlə azərbaycanlı qətlə yetirildi. Onlar xalqımızı soyqırımına məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yandırmaqla və yenidən addəyişməni davam etdirməklə mənəvi soyqırımını da davam etdirdilər. Həmin dövrün materiallarını əks etdirən sənədlərdə qeyd olunur ki, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində türk mənşəli adlar Molla Dursun - Şaumyan, Yuxarı Ağdam - Qanzakar (İcevan), Tamamlı - Burastan (Artaşat) və s. erməni mənşəli sözlərlə əvəzləndi. Ermənilər soyqırımı siyasətinin nəticəsində yer adlarımızın da soyqırımı zaman-zaman həyat keçirilib. Tarixi faktdır ki, SSRİ dövründə daha çox Azərbaycan toponimlərinə qarşı iddialı çıxışlar olub. Bunun nəticəsidir ki, imperiyanın ilk illərində Azərbaycana məxsus olan yer adları dəyişdirildi. Belə ki, 1924-1930-cu illər ərzində Ermənistanda 80 toponim dəyişdirildi. Tarixi sənədlərdə göstərilir ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsi müxtəlif tərəflərdən izah olunsa da, kökü həmin adların türk mənşəli olması idi. Leninin ermənipərəst siyasəti və Azərbaycan toponimlərinin erməniləşdirilməsi daha kütləvi xarakter alırdı. Leninin razılığı ilə 1920-ci ildə onlar ərazi iddialarını təmin edə bilmişdilər. Belə ki, azərbaycanlılar yaşayan Zəngəzur və Göyçə mahalları, Qazax qəzasının Dilican dərəsi Azərbaycandan qoparılıb Ermənistan respublikası yaratmaq naminə ermənilərə bağışlandı. Erməni təcavüzkarları tarixə qarşı da genosid siyasətinə əl atdılar. Məlumdur ki, Ermənistan SSR yaranmamışdan onun zəbt etdiyi Qərbi Azərbaycanda kəndlərin 95 faizdən çoxunun adi türk mənşəli olmuşdur. Kommunist rejimi zamanı isə qısa vaxt kəsiyində azəri toponimləri tam erməniləşmişdir.

Bu genosid siyasətinin bir istiqamətidir ki, Azərbaycan diyarı olan İrəvan xanlığının tarixdən və yer üzündən silinməsinə xidmət edirdi. Belə ki, 1924-cü ildən həmin addəyişdirmə prosesi başlandı və ilk olaraq Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1935-ci ildə 195 kəndin, 1945-ci ildə 39 kəndin, 1946-cı ildə 120 kəndin, 1947-1978-ci illərdə 400-dən çox kəndin, 1978-80-ci illərdə 300-dən çox kəndin, 1991-ci ildə isə qalan 94 kəndin adı dəyişdirildi.

## 3 OKTYABRDA MADAGİZİN TARİXİ ADI BƏRPA OLUNDU

Ermənilər təkcə Ermənistanda deyil, Azərbaycanın bir sıra məkanlarının da adını dəyişib. Elə 3 oktyabr 2020-ci il tarixində erməni işğalından azad olunan Tərtər rayonunun Suqovuşan kəndinin adı ermənilər tərəfindən dəyişdirilərək Madagiz adlandırılmışdır. Azərbaycan ordusu tərəfindən işğaldan azad olunan Suqovuşan da tarixi adına qovuşdu. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması ilə tarixi adı bərpa olundu. Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsi tərkibindəki Madagiz kəndi Suqovuşan kəndi adlandırıldı.

"2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!" - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdi. Onu da xüsusi olaraq qeyd edək: "Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir. Qarabağ Azərbaycandır!". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 oktyabr 2020-ci il tarixində özünün rəsmi "Twitter" səhifəsində yazmışdı. Üç il bundan əvvəl tariximizə yazılan qələbələr bizi Zəfərə doğru apardı. Suqovuşan kəndinin tarixi dövrünə nəzər salsaq görərik ki, əvvəllər Dağlıq Qarabağ Muxtar VilayətindəAğdərə rayonu inzibati ərazisinə aid idi, lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir.

Suqovuşan ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edilib. Artıq Azərbaycanın güclü ordusu tərəfindən işğaldan azad olundu.

2020-ci ilin 3 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Tvitter" səhifəsində yazırdı: "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"

## SUQOVUŞAN QƏSƏBƏSİNDƏ YAŞAYIŞ MƏHƏLLƏSİ İNŞA OLUNUR

Dövlət başçısı tərəfindən prioritet elan edilən ordu quruculuğu sayəsində Azərbaycan Ordusu ən müasir silahlarla silahlanmış, dünyanın ən güclü orduları sırasında özünə layiqli yer tutmuşdu. Peşəkarlığı yüksək olan Azərbaycan Ordusunun ən yüksək texnologiyalara məxsus hərbi texnikalarla silahlanması və ölkəmizin də inkişaf etmiş hərbi-sənaye kompleksinə malik olması qələbəmizi şərtləndirən amillərdəndir. Azərbaycan Ordusu həm hərbi potensialına, həm də döyüş qabiliyyətinə görə nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Son illərdə ordu quruculuğunda əhəmiyyətli islahatlar həyata keçirilib, bu məsələ ilə bağlı dövlət başçısı tərəfindən ardıcıl olaraq addımlar atılıb ki, bunun da müsbət nəticələri özünü 44 günlük Vətən müharibəsində büruzə verdi. "Silahlı qüvvələrin döyüş qabiliyyətinin artırılması üzrə gündəlik böyük iş aparılırdı", - deyən Cənab Prezident qeyd edib ki, döyüş qabiliyyətli silahlı qüvvələri olmayan ölkə necə texniki vasitələrə malik olsa belə, onun döyüşdə, xüsusən müharibədə, özü də belə əlverişsiz coğrafi şəraitdə qalib gəlməsi mümkün olmazdı.

Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan Ermənistana şanlı ordumuz layiqli cavab verdi və hər gün irəliyə doğru addımlayaraq xalqımıza qələbə sevincini yaşatdı. Qəsbkar düşmənə ağır zərbələr vuruldu. Ermənilər haqsızlığın, ədalətsizliyin sonu olacağını aldığı zərbələrdən anlaydılar. Qəhrəman ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı düşmən işğalından qətiyyətlə azad edirək xalqımıza tezliklə Qələbə sevincini - Zəfərimizi yaşatdı. Bu gün işğaldan azad olunan ərazilərimiz yeni dövrünü yaşayır.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Suqovuşan qəsəbəsində inşa olunacaq yaşayış məhəlləsinin təməli qoyulub. Ümumi sahəsi 2 hektardan çox olan məhəllədə 25-i birotaqlı, 80-i ikiotaqlı, 75-i üçotaqlı, 10-u isə dördotaqlı olmaqla ümumilikdə 190 mənzil inşa edilir. Məhəllədə, həmçinin futbol, idman və uşaq meydançaları, transformator yarımstansiyası və digər zəruri infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulub. Burada, həmçinin geniş yaşıllıq zolaqları da salınacaq. Bütün bunlar deməyə əsas verir ki, digər ərazilərimiz kimi, Suqovuşan da yeni dövrünü yaşayır.

***Nəzakət ƏLƏDDİQIZI***

# Müəllim peşəsini müqəddəs hesab edən dahi lider...

Düşünürəm ki, ən şərəfli, ən ülvi, ən uca ad olan müəllimlik dünyada ən çətin, eyni zamanda ən müqəddəs və ən gözəl peşədir. Müəllimlər şagirdlərin dərin və hərtərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edən şəxsiyyətlərdir. Məhz müəllimlər valideynlə bərabər, bəlkə də, ondan daha çox istənilən uşağın hər cür şıltaqlığına, əziyyətinə dözür, kədəri ilə kədərlənir, sevinci ilə sevinir-bu müəllimlərin üzərinə düşən ən ağır yükdür. Bəşəriyyət etiraf edir ki, müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir-bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir, onu mənən yetkinləşdirir. Hazırda dövlətimizin qazandığı müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin nəticəsidir. Müəllimləri yeni cəmiyyət quruculuğunun memarları hesab etsək səhv etmərik-axı hər birimizin layiqli vətəndaş kimi yetişməyində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur. Dünya ölkələrində Beynəlxalq Müəllimlər Gününün qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də verilmişdir-"Müəllimlərin vəziyyəti ilə bağlı BƏT/UNESCO tövsiyyəsi" dünya üzrə müəllimlərin statusu və vəziyyətinə toxunan standart sənəd qəbul olundu-1994-cü ildə isə Beynəlxalq Əmək Təşkilatı və BMT-nin Təhsil, Elm və Mədəniyyət təşkilaı olan YUNESCO tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilmişdir-həmin vaxtdan başlayaraq 5 oktyabr Beynəlxalq Müəllimlər Günü kimi bayram edilir. Bu tarix həm də BMT-nin beynəlxalq və ümumdünya günlər sisteminə daxildir-bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna diqqət çəkməyi nəzərdə tutmuşdur. Müəllimlər Günü hazırda dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə qeyd edilir. Müstəqil Azərbaycanda isə bu tarix Ulu öndər tərəfindən 1993-cü il oktyabrın 5-də rəsmiləşdirilmişdir. Həmin vaxtdan etibarən hər il ölkəmizdə Beynəlxalq Müəllimlər Günü bu müqəddəs peşə sahiblərinə böyük sevgi ilə qeyd edilir. Heç şübhəsiz ki, müstəqil Azərbaycanın müəllimlər ordusu həmişə olduğu kimi bundan sonra da xalqımızın gələcək xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edərək respublikamız üçün layiqli vətəndaşların yetişdirilməsində səy və bacarıqlarını əsirgəməyəcəklər. İnsanı öz halal zəhməti hesabına yaşadan və ucaldan hər bir peşə şərəfli olduğu kimi, hər bir peşə sahibi də hörmətə layiqdir-lakin dünyada bir peşə var ki, o peşənin sahibləri hər bir cəmiyyətin, hər bir fərdin həyatında əlahiddə rol oynayır, insanların mənəvi və əqli inkişaf səviyyəsini müəyyən edir, hər bir fərdin yetkin vətəndaşa çevrilməsinə öz töhfələrini verirlər-bunlar əlbəttə ki, MÜƏLLİMlərdir.

Müəllim adını dünyanın ən şərəfli varlıqları daşıyırlar. Milyonlarla insan bu adın ziyasından işıq alır. Bu ad bizə əlimizdən qələm tutaraq ilk dəfə ana, vətən kəlmələrini yazdıran varlıq, ilk dəfə bizə həyatı bütün boyaları ilə dərk etdirən məxluqdur. Vəzifəsindən, peşəsindən asılı olmayaraq hər kəs bu adın qarşısında baş əyir-Ümummilli lider də müəllim adının müqəddəsliyini daim vurğulamışdır. Bəli, müəllim sözün əsl mənasında müqəddəs varlıqdır. İnsanlara elm öyrətməklə öz həyatını şam kimi əridən, qəlblərdə əbədi taxt quran bir şəxsiyyətdir. Bu şərəfli peşə sahibləri hər birimizin həyatında ikinci valideyn rolunu oynayır. Müəllim yeni təfəkkürlə böyüyən gənc nəslin mənəvi aləminin əsl memarıdır. Dahi Atatürkün dediyi kimi, "Əsərinin üzərində imzası olmayan yeganə sənətkar müəllimdir". Şair demişkən "hər könüldə yeri olan" müəllimlərimiz qəlbimizdə əzəmətli taxt qurublar. Müəllim uşaqlığımızdan qocalanadək hər birimizin təfəkküründə saf, təmiz duyğulara malik bir şəxsiyyət kimi qalmaqdadır.

Bütün tarixi dövrlərdə və bütün ölkələrdə görkəmli tarixi şəxsiyyətlər, dövlət adamları müəlimlərə və müəllimlik peşəsinə yüksək qiymət vermiş və bu müqəddəs işi cəmiyyətin ən şərəfli peşəsi hesab etmişlər. Məhəmməd Peyğəmbər özünü müəllim adlandırmış, Nizami müəllimi Günəşə, Rumi müəllimi yanar şama, Füzuli müəllimi gənc qəlbin memarına bənzətmiş, Tusi müəllimi elmin çırağı adlandırmış, Sidqi müəllimi dadlı meyvələr yetişdirən bağbana, Cavid müəllimi cahan süfrəsinə çiçək bəxş edən bəxtəvərə bənzətmişdir. Bu müdrik fikirlər arasında XX əsrin dahi şəxsiyyəti, böyük dövlət xadimi Heydər Əliyevin müəllimlik peşəsi haqqında dediyi sözlər öz xüsusi dəyəri, əhəmiyyəti və peşəyə verdiyi yüksək qiyməti ilə seçilir: "Mən yer üzündə müəllim adından yüksək bir ad tanımıram!". Bu qiymətli sözlər Ulu öndərin müəllimlik peşəsinə sıx bağlı olmasından, bu peşəyə yaxından bələd olmasından, ilk peşə ixtisasının və ilk vəzifə təyinatının müəllimlik olmasından irəli gəlir. Müəllim Kainatın sirrlərini öyrənərək yaşam dünyamızı gözəlləşdirən, insanlığa elm-mədəniyyət, bilik-savad, təlim-tərbiyə verən, bizi yetişdirən, ən əsası da vətənə layiqli övlad olmağı öyrədən,



*Yaşar Əhmədov*
*Fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının dosenti*

hər kəsin qəlbinin ali sevgi mərtəbəsindəki yerin sahibidir!

Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, hər zaman onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasını diqqətdə saxlamış, bu müqəddəs peşə sahiblərinin qayğısına qalmışdır. Müəllimlik sənətini şərəfli bir sənət hesab edən Umummilli lider Azərbaycan müəllimlərinin I qurultayındakı nitqində demişdir: "...siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu bitirmişəm. Naxçıvan Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra pedaqoji texnikuma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və ailəmə kömək etmək istəyirdim. Pedaqoji texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftədə 2-3 dəfə gedib məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona görə də mənim o vaxtdan dərs vermək təcrübəm olmuşdurdur ".

"Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq"-deyən Ulu öndər məktəblə, maariflə həmişə sıx bağlı olmuşdur-" hesab edirəm ki, cəmiyyət harada olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir " Müəllimlik peşəsini ürəkdən sevən, müəllim əməyinə yüksək qiymət verən dahi şəxsiyyət Azərbaycanda ona təklif olunan müxtəlif fəxri adlardan yalnız "Xalq müəllimi" fəxri adını qürur hissi ilə qəbul etmişdir. Müəllimlik adını çox yüksəkdə tutan və müəllimliyə müqəddəs bir peşə kimi baxan Heydər müəllim " Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir "-demişdir. Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimlərə, təhsil işçilərinə xüsusi ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasını diqqətdə saxlamış, bu müqəddəs peşə sahiblərinin qayğısına qalmış, hər fürsət düşdükcə öz müəllimləri ilə görüşərək onlara səmimi minnətdarlığını ifadə etmişdir. Ulu Öndər qeyd edirdi ki, hər birimiz tutduğumuz mövqedən, hansı məslək və peşə sahibi olmağımızdan asılı olmayaraq, bütün nailiyyətlərimizə görə, ilk növbədə, məktəbə və müəllimə borcluyuq-o dövlət quruculuğu prosesində, xüsusən də gənc nəslin yetişdirilməsində müəllimlərimizə özünün əsl silahdaşları kimi baxırdı. Əslində, ölkəmizin və millətimizin ən böyük müəllimi də elə Heydər Əliyevin özü idi-onun bioqrafiyasını araşdıran bir çox tanınmış müəlliflər bu böyük dövlət adamını həm də Ustad müəllim kimi xarakterizə edirlər.

Həyatını müəllimliyə həsr edən insanlara hörmətlə yanaşan, bu adı daşıyanlara qayğı göstərən Ulu öndər müəllimlərin əməyini fədakarlıq hesab etmiş, onlarla bağlı bütün söhbətlərində bu müqdds peşə sahiblərini hər zaman xalqına, millətinə sədaqətlə xidmət edən və eyni zamanda qəhrəmanlıq göstərən böyük insanlar adlandırmışdır. Ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, gələcək üçün onun dəyərini yüksək qiymətləndirən Ulu öndər hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz layiqli yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını qeyd etmiş, hər kəsin həyatında onun əvəzsiz rol oynadığını dəfələrlə vurğulamış, məhz təhsili hər bir dövlətin, ölkənin, fərdin, bütövlükdə cəmiyyətin həyatının, onun gündəlik fəaliyyətinin mühüm bir sahəsi hesab etmişdir. "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz"-deyən Ulu öndərin aşağıdakı dəyərli fikirləri də səciyyəvidir: "İnsan təhsilinin əsasını orta məktəbdə alır Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, cəmiyyətimizin şüurlu üzvü olacaqdır". Dahi rəhbərin orta təhsilin qarşısında duran vəzifələrlə bağlı qiymətli tövsiyə və tapşırıqları bütün zamanlar üçün dəyərini saxlayan əsl fəaliyyət proqramı hesab oluna bilər.

Ümummilli lider orta ümumtəhsil məktəblərində şagirdlərin bütün müvafiq elmlər üzrə zəruri biliklərə yiyələnməsini, onların seçdikləri gələcək ixtisaslara uyğun fənləri daha dərindən öyrənməsini lazım bilmiş, bunlarla yanaşı, istisnasız olaraq hər bir şagirdin mükəmməl bilməsi son dərəcə vacib olan fənləri də ayrıca vurğulamışdır: "Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər Amma orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər-gənclərimiz ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər". Bu çağırış bütün zamanlar üçün əhəmiyyət kəsb edən şüardır-bu gün orta məktəblərdə yuxarı sinif şagirdləri dərslərə getmir, qəbul olmaq istədikləri ali məktəblərin profilinə uyğun repititor yanına gedir, dar çərçivədə müəyyən fənləri öyrənməklə kifayətlənirlər. Texniki ali məktəb tələbələri ana dilində danışmaqda çətinlik çəkir, tariximizlə bağlı hadisələrin onlara aid olmadığını düşünürlər-faciə odur ki, doktoranturaya qəbul imtahanı verən, gələcəkdə alim olmağa iddialı olanların bəziləri illər boyu işğal altında olan rayonlarımızın adlarını sadalamaqda çətinlik çəkirlər. Texniki ali məktəblərdə ictimai və humanitar elmlərə qarşı aparılan mənfi kompaniyaya yuxarı səviyyədə himayədarlıq edilir- "mən universitetdə ictimai fənlərin tədrisini ləğv edəcəm, Allah ya mənə verər, ya onlara"-deyən ali məktəb rəhbəri Ulu öndərin hər bir gənc "ana dilimizi, ədəbiyyatımızı, tariximizi, mədəniyyətimizi bilməlidirlər"-çağırışına laqeyid yanaşır, təhsildə sabotajla məşğul olur.

Məktəblərin, müəllimlərin ən əsas, şərəfli vəzifəsini cəmiyyətə, xalqa, bütövlükdə ölkəyə dəyərli vətəndaşlar hazırlamaqda görən Ulu öndər təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusən Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin mahiyyətcə yeniləşməsini, müasir tələblərə cavab verən səviyyəyə qaldırılmasını çox vacib şərt hesab etmişdir. Bu narahatlıq təsadüfi deyildir-belə ki, sabahın qurucuları olan gənclərin milli ideologiyaya yiyələnməsi məhz orta məktəbdən başlayır və bu vəzifənin düzgün təşkili ölkə üçün həyati əhəmiyyətə malikdir. "Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər". Təəssüf ki, orta məktəblərdə bu çağırışa biganəlik hələ də qalır, texniki ali məktəblərdə isə ictimai və humanitar fənlərə ayrılan saatlar sürətlə azaldılır, onları seçmə fənlər blokuna salmaq ənənəsi geniş vüsət alır.

Azərbaycan müəllimlərinin hər birinin ən yüksək mənəviyyata, yetkin vətəndaşlıq hisslərinə malik olan insanlar olduğunu dəfələrlə vurğulayan Ümummilli lider böyük pedaqoq məharəti ilə müəllimlərə təkcə öyrənmək və öyrədə bilmək bacarığını deyil, həmçinin, məktəbliləri, tələbə -gəncləri Vətənə sədaqətlə xidmət etmək ruhunda böyütməyi, onları xalqımızın milli-mənəvi dəyərləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. "Uşaqlar gərək orta məktəblərdə bütün fənləri mənimsəsinlər. Bunların hamısı ilə bərabər, bizim xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, çatdırmaq, uşaqları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur. Mən arzu edərdim ki, müəllimlər bunu heç vaxt unutmasınlar "-dahi şəxsiyyət öz istəklərini belə bildirmişdir. Ulu Öndər özlərini Vətən torpağının bir zərrəsi sayan gənslərin tərbiyə edilib yetişdirilməsində müəllim əməyinə, onun şəxsiyyətinə yüksək qiymət vermiş, "müəllim adı şərəfli addır, müəllim adı yüksək addır"-demişdir. Müəllim cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaş hazırladığı üçün onun vəzifəsi şərəflidir, müəllim dünyada yeganə şəxsiyyətdir ki, cəmiyyət öz gələcəyini - uşaqlarının tərbiyəsini yalnız ona etibar edir.

Ulu öndər dəfələrlə bildirmişdir ki, ölkədə təhsilin hərtərəfli yüksəlişində, təlim-tərbiyə prosesində qarşıda duran mühüm, çoxşaxəli vəzifələrin uğurla həyata keçirilməsində təkcə məktəbin, orada çalışan pedaqoji heyətin əməyi kifayət deyildir-yeniyetmə və gənclərin gələcəyin savadlı mütəxəssisi, layiqli vətəndaşı kimi formalaşması üçün bütün cəmiyyət bunda maraqlı olmalıdır, məktəblə ailənin birgə fəaliyyəti təmin edilməlidir. "Məktəblə ailənin sıx, qarşılıqlı əlaqəsi olmadan mükəmməl tərbiyə ola bilməz, çünki bu proses kompleks bir prosesdir və onun səmərəliliyini valideynlərlə pedaqoqların birgə səyi ilə yüksəltmək lazımdır".

Görkəmli şəxsiyyətin milli təhsil və tərbiyə məsələlərinə dair nəzəri konsepsiyaları son dərəcə qiymətlidir və çağdaş dövrdə də, gələcək yüzillərdə də öz dəyərini, əhəmiyyətini saxlamaq gücünə malikdir-bu konsepsiya hər bir təhsil alanın, hər bir pedaqoqun, ümumən, hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalıdır.

Ulu öndər dəfələrlə bəyan etmişdir ki, hər bir dövrdə, istənilən vəziyyətdə təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyin yetkin, kamil şəxsiyyəti kimi hazırlamaqdır. Hər bir insan əsl vətəndaş olmalıdır, həm də dövlətinə, millətinə, ənənələrinə, xalqına sadiq olan vətəndaş olmalıdır. Təhsil və tərbiyə prosesində müəllimin peşə hazırlığı, savadı, mənəviyyatı mühüm əhəmiyyət daşıyır, əsl pedaqoq olmaq, şagird və tələbələrə mükəmməl, hərtərəfli bilik vermək, onları nəcib mənəvi amallara sədaqət ruhunda yetişdirmək üçün məktəblərdə müvafiq şərait, lazımi mühit yaradılmalı, müəllimin özü bu yüksək keyfiyyətləri dərindən mənimsəməli, yetirmələrinə nümunə olmalıdır: "Məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".

Gəncliyi hər bir millətin yaşaması, inkişafı üçün təməl daşı hesab edən Ulu öndər qeyd edirdi ki, bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir-çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə gənc nəsilə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir-belə ki, ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılıdır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır.

Bu gün dünyada inkişaf çox sürətlə gedir və gedən bu proseslərdə ölkəmiz də yaxından iştirak edir. Azərbaycanda gənclərin yüksək səviyyədə təhsil alması, onların yaradıcılıq potensialının inkişafı, öz bilik və bacarıqlarını nümayiş etdirməsi üçün dövlətimiz tərəfindən lazımi şərait yaradılmışdır-bütün ümumtəhsil məktəblərində təhsil alan uşaq, yeniyetmə və gənclərə dövlət rəmzlərimizə, müstəqilliyimizə, xalqımızın tarixinə, dilinə, adət və ənənələrinə, milli dəyərlərinə hörmət və qayğı aşılanır, vətənpərvər ruhlu, Azərbaycan dövləti və xalqı qarşısında öz məsuliyyətini dərk edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən gənclər yetişdirilir. Heç şübhəsiz ki, bu proseslərdə, ölkəmizin inkişafı və rifahı üçün müəllimin üzərinə daha çox məsuliyyət düşür. Azərbaycan müəllimi həmişə öz işinin öhdəsindən məharətlə gəlmiş və bundan sonra da vətənimizə, millətimizə yararlı gənclər, dövlətimizə layiqli vətəndaşlar yetişdirəcəkdir!

Ümummilli lider təhsil illərində yalnız "əla" qiymətlərlə oxumuş, həmişə də öz müəllimlərinə böyük hörmət və ehtiramla yanaşmış, onları daim minnətdarlıqla xatırlamışdır: "Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Müəllimlərimin hamısı yadımdadır. Hansı binada, hansı sinif otağında dərs keçməyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumağım mənim üçün çətin olmamışdır. İndiyə qədər həyatımda keçdiyim yol mənim biliyim, elmim - hamısı məhz orta məktəbdə aldığım təhsillə, müəllimlərin mənə verdiyi biliklərlə, müəllimlərin mənə və o illərdə oxuyan mənim kimi gənclərə göstərdikləri qayğıkeşliklə, eyni zamanda müəllimə böyük hörmətimlə, ehtiramımla bağlıdır. Mən indi də müəllimlərimi heç vaxt unutmamışam və ömrümün son dəqiqəsinə qədər unutmayacağam. Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirir".

**Ardı Səh. 12**

# Müəllim peşəsini müqəddəs hesab edən dahi lider...

Əvvəli Səh. 11

Ulu öndər Naxçıvan Pedaqoji Texnikumunda təhsil aldığı dövrdə ən fəal və əlaçı tələbə olmuş, ictimai işlərdə fəal iştirak etmiş, idman yarışlarında birincilik qazanmış, incəsənətlə - rəssamlıqla, aktyorluqla məşğul olmuş, daim mütaliə etmiş, kitablar oxumuş və hərtərəfli inkişaf etmiş qamətli, yaraşıqlı bir gənc olmuşdur. Naxçıvan Pedaqoji Texnikumu öz məzunları və müəllimləri ilə məktəb və pedaqoji fikri tariximizdə çox layiqli yer tutmuş və pedaqoji kadr hazırlığında daim yüksək pillədə durmuşdur. Burada dərs deyən müəllimlər təcrübəli, bilikli, peşəkar müəllimlər olmuşlar, hər cür çətinliklərə baxmayaraq həvəslə, fədakarlıqla çalışmışlar-onların bir çoxu Qori və İrəvan Müəllimlər Seminariyalarını bitirmiş, Moskva və Leninqrad universitetlərində təhsil almış həvəslə çalışan, peşəkar müəllimlər idilər -pedaqoji texnikum Naxçıvan Muxtar Respublikasının maarif və mədəniyyətinin tərəqqisində, müəllim kadrla-rının yetişməsində, təkmilləşməsində müstəsna rol oynamışdır.

Özünün bütün həyatını Azərbaycana, onun inkişafına və tərəqqisinə həsr edən dahi şəxsiyyət başqa sahələrdə olduğu kimi, xalqımızın təhsilinə, onun yüksəlişinə, bu sahədə şərəflə çalışan insanların şəxsiyyətinə, işinə, əməyinə həmişə yüksək qiymət vermiş, onlara böyük hörmət və ehtiramını bildirmişdir. Bu hörmət və ehtiram onun bütün çıxışlarında, fəaliyyətində-istər müəllimlər qarşısında çıxışlarında, istər müəllimlər qurultayına göndərdiyi təbrik məktublarında, istərsə də respublikamızın problemləri ilə bağlı digər məruzə və çıxışlarında həmişə olmuş və özünü göstərmişdir. AzİI-nin yubley tədbirində iştirak edən Ulu öndər zalda vaxtilə ona Naxçıvanda dərs demiş "Fəlsəfə" kafedrasının dosenti Əli Talıbovu görüb ona yaxınlaşır, əlini Əli müəllimin çiyninə qoyub, "Biz sənə Qara Əli deyərdik, maşallah cavan qalmısan, mənə də görüm Kantın "şey özündə"sinin axırı nə oldu"- onu qucaqlayır- böyük qürurla "müəllimlərim mənim həyat yolumun məşəlidir"-deyir.

Azərbaycanda təhsilin qədim və zəngin tarixi vardır-tarixin bütün mərhələlərində Azərbaycanda müəllimin, təhsilin rolunu yüksək qiymətləndirmişlər- Azərbaycanda iqtisadiyyat, mədəniyyət, həyatın bütün sahələrində, elm sahəsində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir-hər kəs öz tərcümeyi-halı, öz həyat yolu ilə məktəbin, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilməli və onu qiymətləndirməli, bütün varlığı, keçdiyi həyat yolu ilə həmişə məktəbə, müəllimə borclu olduğunu unutmamalıdır. Ümummilli lider deyirdi: "Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam. Arzu edərdim ki, müəllim elə müəllim olsun ki, bax, mənim hafizəmdə orta məktəbdən indiyədək yaşayan duyğular hər bir gəncin hafizəsində qalsın. Xatirimdədir, biz müəllimi görəndə həmişə özümüzü yığışdırırdıq-müəllimdən həm qorxurduq, həm də ona hörmət edirdik. Biz müəllimin hər sözünü qanun kimi qəbul edirdik. Şəxsən mənim həyatımda müəllim ən ali sima olmuşdur-mən tək deyiləm, hesab edirəm, Azərbaycan vətəndaşlarının əksəriyyəti mənim kimi belə düşünür. Hər kəs öz həyatında müəllimlə özünün əlaqəsi haqqında fikirlər söyləyə bilər. Ancaq mənim çoxillik həyatımda, dünyanın çox mərhələlərini keçib gəldiyim həyatımda ən çox yadımda qalan, mənim üçün əziz olan müəllimlərdir. Mən onları bu gün də böyük minnətdarlıqla xatırlayıram. Hesab edirəm ki, mənim öz daxili istedadımla yanaşı, müəllimlərimin mənə verdikləri bilik, tərbiyə, müəllimlərimin mənə göstərdiyi yol bütün həyatımı həmişə uğurlu edibdir və bu gün də uğurlu edir".

Ümummilli liderin müəllimlik peşəsinə olan münasibətində həmişə bir müdriklik, qayğıkeşlik, bu sənətə böyük hörmət və ehtiramı görünür-bu, bir tərəfdən onun dövlət başçısı kimi vəzifəsindən irəli gəlsə də, digər tərəfdən onun ilk ixtisasca müəllim olması ilə bağlı olduğunu deyə bilərik. Ulu öndərin insanlara yanaşma tərzi, onlarla ünsiyyət və münasibəti, hər bir adamla "öz dilində danışması" onun pedaqoji məharətini, psixoloji, etik, estetik biliklərə dərindən yiyələnməsini, geniş dünyagörüşünə, çevik və hərtərəfli bilik və məlumatlılığa malik olmasını göstərir. Bu dahi şəxsiyyətin səlis və aydın nitqi, insanlara humanist münasibəti, demokratik düşüncələri, tolerantlığı, əzmkarlığı, peşə fədakarlığı, dərin zəkası, incə yumoru, dəmir iradəyə sahibliyi, habelə səliqəli geyimi, vüqarlı yerişi, ifadəli baxışları, düzgün davranış və hərəkətləri hər bir müəllimin peşə keyfiyyətləri, peşə fəaliyyəti üçün bir nümunədir.

Ümummilli lider 1980-ci ildə ali məktəb işçilərinin respublika müşavirəsində " Biz istəyirik ki, hər bir ali məktəb müəllimi öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, yaxşı pedaqoji vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlərə malik olsun. Bunun üçün gərək hər bir ali məktəb müəllimi elmi biliklərdən əlavə, yaxşı nitq, dil qabiliyyətinə, natiqlik məharətinə, bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin.."-demişdir. Bu gün Prezident İlham Əliyevin səriştəli müəllim kadrları hazırlığı problemini təhsil işçilərinin qarşısına bir vəzifə olaraq qoyması Ulu öndərin ideyalarından irəli gəlir.

"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq"-deyən dahi rəhbər həmçinin müəllimlərin dərin elmi- pedaqoji biliklərə yiyələnməsini və onların tələbələrə çatdıra bilməyi vacib amillərdən sayırdı. O müəllimlərin mənəvi tərbiyəsinə, onların, ilk növbədə yüksək əxlaqi keyfiyyətlərə yiyələnməsinə xüsusi əhəmiyyət verir və bunu daha yüksək qiymətləndirirdi. Ümummilli lider müəllimlərin işinin ən çətin, lakin ən lazımlı və gərəkli iş olduğunu qeyd edir və onların üzərinə düşən vəzifələrin Vətən üçün, xalq və millət üçün əhəmiyyətli olduğunu dəfələrlə qeyd edirdi: " hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır".

Ulu öndərin müəllimlik peşəsinə verdiyi qiymət, təlim və tərbiyə haqqında söylədiyi müdrik fikirlər həmişə aktual və əhəmiyyətlidir-o fikirlər pedaqoji elmin dəyərli mənbəyi, fəaliyyətimizin kompası, təhsilimizin metodoloji əsasıdır. "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq"-deyən Ulu öndər üçün müəllim müqəddəsdir, bütün dövrlərdə bu peşə sahiblərinin üzərinə böyük vəzifələr düşür. İnsanlara bilik vermək, elm öyrətmək kimi mühüm vəzifənin öhdəsindən məhz müəllimlər gəlir. Hər birimiz üçün müəllim doğma və əzizdir-çünki müəllim bizə təhsil verir, dərs öyrədir, yol göstərir, daim qayğımıza qalır. Buna görə də müəllimlərimizi böyük ehtiram və hörmətlə xatırlayırıq. Öyrəndiklərimizə görə həmişə onlara minnətdarıq. "Müəllimlər cəmiyyətin memarlarıdır"- desək, yəqin ki, səhv etmərik. Bu danılmaz bir həqiqətdir ki, hər kəsin layiqli vətəndaş kimi formalaşmasında müəllimlərimizin əvəzsiz xidmətləri vardır. Ümummilli lider həmişə müəllim əməyini yüksək qiymətləndirir, öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürəkdolusu danışardı.

Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi rifah halının qayğısına qalmışdır. Azərbaycan tarixinin Heydər Əliyev epoxası taleyüklü məqamları, dövlətçilik uğrunda gərgin mübarizə, xüsusilə ölkə təhsilinə diqqət və qayğısına görə böyük bir dövrdür desək, yanılmarıq. "Təhsil millətin gələcəyidir"-deyən Ulu Öndər təhsilin cəmiyyətin inkişafındakı rolundan danışarkən deyirdi: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır".

Azərbaycan təhsilinin milli tarixində yüksəlişi Ümummilli liderin adı ilə bağlıdır-Sovet dövründə Azərbaycan gənclərinin həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda təhsil almalarına şərait yaradan Ulu öndərin təşəbbüsü və qayğısı sayəsində keçmiş SSRİ-nin ən məşhur ali məktəblərində xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc ali təhsil almış, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmışdır-dahi insan onları "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" adlandırmışdır.

Ulu Öndər Azərbaycana rəhbərliyi dövründə bir çox problemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun islahatlar həyata keçirmiş, təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirilmiş, planlı islahatların əsası qoyulmuş, Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görülmüşdür-bu illərdə müəllim əməyi yüksək qiymətləndirilmiş, onlara böyük hörmətlə yanaşılmış, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalınmışdır. Ulu öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin qurultayında demişdir ki, "müəllimlik peşəsi asan peşə deyildir-bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimlərdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən almışıq".

Müəllim adı həmişə çox uca tutulmuşdur, o gənc nəslin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini - uşaqları, öz ümidini, gələcəyini müəllimə etibar edir-bununla sanki məktəbin, müəllimin məqsəd və vəzifəsi də müəyyənləşir, xalqın, dövlətin gələcəyi formalaşır. Əsrlər boyu müəllim cəmiyyətdə sayılıb-seçilən insanlardan olmuşlar və bu gün də müəllimlər cəmiyyətdə özlərinə layiq yer tuturlar. Onlar öz vəzifələrinin məsuliyyətini, çətinliyini, müqəddəsliyini dərk edir və gələcək nəslin cavabdehliyini çiyinləri üzərində daşımağa imza ataraq bu yolda heç bir çətinlikdən qorxmayan, zəhməti, fədakarlığı hesabına özünə inanan insanlardır. Ümummilli liderin sözləri ilə desək, "...müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətəndaşlar hazırlayır"-bu gün də ölkəmizdə müəllim adının ucalığını qoruyan, öz intellektindən, biliyindən minlərlə şagirdinə, tələbəsinə pay verən dəyərli müəllimlərimiz az deyildir.

Ulu Öndər hər zaman müəllim peşəsinə böyük dəyər vermişdir-o yeni tədris ilinin ilk günündə məktəblərdə olur, müəllim və şagirdlərlə görüşür, onları dinləyir və öz müdrik tövsiyələrini verirdi-bu bilik insanı fədakar əməyi ilə fərqlənən müəllimlərin fəaliyyətinin qiymətləndirilməsinə xüsusi diqqət yetirirdi. 70-ci illərdə 817 nəfər "Əməkdar müəllim" fəxri adı almış, 3 nəfər müəllim o dövrün ən yüksək təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Prezident hər zaman müəllim əməyinə yüksək dəyər vermiş, onların fəaliyyətinin maddi və mənəvi stimullaşdırılması ilə bağlı ardıcıl olaraq qərarlar qəbul etmişdir. Onun rəhbərliyi dövründə hər il müəllimlərin peşə bayramı ərəfəsində təltif edilməsi təcrübəsi tətbiq edilmiş, bu dövrdə 3 mindən çox təhsil işçisi dövlət təltiflərinə, o cümlədən 1500 nəfər "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Orta məktəbdə mənə dərs deyən, uşaq vaxtlarımdan, gənclik çağlarımdan məni tərbiyə edən müəllimləri heç vaxt unutmamışam, həmişə onları minnətdarlıqla yad etmişəm- mən bunu həm cəmiyyətdə müəllimlərə hörməti daha da artırmaq üçün, həm də böyük bir həyat yolu keçmiş insan kimi, müəllimin cəmiyyətdə nə qədər mühüm rol oynadığını qeyd etmək üçün deyirəm. Əgər müəllim olmasa, heç birimiz cəmiyyətdə indi tutduğumuz yeri tuta və bugünkü kimi fəaliyyət göstərə bilmərik. Ümummilli lider müəllimlik sənətini, müəllimin işini, zəhmətini həmişə yüksək qiymətləndirmişdir-"...hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir-bu, mənim prinsipial mövqeyimdir". Ümumiyyətlə, müəllim haqqında, onun keyfiyyətləri barədə günlərlə, saatlarla danışsaq da fikrimizi bitirə bilmərik. Azərbaycanda görkəmli ziyalılarımız, elm və sənət adamlarımız, ədiblərimiz hər zaman müqəddəs varlıq olan müəllim haqqında dəyərli fikirlər söyləmişlər. Ulu Öndər söyləyirdi ki, müəllimlərimizin əsas vəzifəsi əlbəttə ki, ilk növbədə, gənc nəslə - məktəblərə qədəm qoyan şagirdlərə, ali məktəblərə qəbul olunan gənclərə yaxşı təhsil verməkdən ibarətdir. Amma gərək unutmasınlar ki, hər bir azərbaycanlı gənc yaxşı təhsil almaqla yanaşı, həm də gərək dəyərli vətəndaş kimi formalaşsın, öz dövlətinə, millətinə və xalqının adət-ənənələrinə sadiq vətəndaş kimi yetişsin!

Ümummilli liderin memarı olduğu Azərbaycan Respublikası bu gün dünya durumunu müəyyənləşdirəcək güc mərkəzlərinin hesablaşdığı varlı, inkişaf etmiş, güclü orduya malik, torpaqlarını azad etmiş, qürurlu, məğrur, "Kosmik ailə"nin üzvü, müxtəlif sahələrə aid öz modelini yaradaraq ixrac edən, nümunə olan, Böyük Turan Birliyini qurmağı hədəfləmiş dünya dövlətidir. Bütün bu qazanılan və qazanılacaq neçə-neçə uğurların sarılmaz əsası Ulu Öndərin fenomenal təhsil siyasətinin məntiqi nəticəsidir. "Təhsilimizin məqsədi gənc nəsilə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan həm də eyni zamanda yetkin vətəndaş olmalıdır"

Ümummilli liderin müəllim peşəsinə sonsuz diqqəti onun siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir, müəllim nüfuzunun yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. "Azərbaycanın əldə etdikləri bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur. Azərbaycan müəlliminin tarixən xalqımızın intellektual potensialının formalaşmasında böyük xidmətləri vardır"-deyən Prezident İlham Əliyevin hakimiyyəti dövründə ölkədə müəllimlərə, bütövlükdə təhsilə və təhsil işçilərinə eyni həssaslıqla xüsusi diqqət və qayğı göstərilir. Hər yeni dərs ilinin başlanğıcı Azərbaycanda onlarla yeni məktəbin, eləcə də bu və ya digər ali məktəbin, yeni fakültələrin, yeni tədris korpuslarının açılışı ilə yadda qalır. Azərbaycanda müəllimlərin maddi rifah halının yaxşılaşdırılması məqsədilə Prezident tərəfindən davamlı olaraq xüsusi addımlar atılır.

Azərbaycanın vətənpərvər gəncləri 44 günlük Vətən müharibə ilə torpaqlarımızı yağı düşməndən azad edərək xalqımıza zəfər sevincini yaşatdılar, onlar 23 saat 43 dəqiqəlik antiterror əməliyyatı ilə yadelliləri birdəfəlik qovaraq bütöv Qarabağda üç rəngli bayrağımızı dalğalandırdılar. Danılmaz faktr ki, bizə qələbə sevincini yaşadan hər gəncin bu qədər vətənpərvər ruhlu olmasında müəllimin əməyi əvəzsizdir və bir daha sübut olundu ki, müəllimin uzun illər ərzindəki fəaliyyəti nəticəsində qarşıya qoyulan vəzifələrə-Vətənin keşiyində duran, torpaqlarımız, ümummilli dəyərlərimiz üçün canından keçməyə hazır olan vətəndaşlar yetişdirməyə nail olunmuşdur. Bu, Azərbaycan müəlliminin, təhsilimizin, eyni zamanda Ümummilli liderin siyasətini layiqincə davam etdirən cənab İlham Əliyevin ən böyük uğurudur. Son illər təhsil sahəsində həyata keçirilən uğurlu islahatlar, məqsədyönlü şəkildə görülən işlər dövlətimizin daha da qüdrətlənməsinə, savadlı, bacarıqlı gənclərin yetişdirilməsinə imkan verir. Düşünürəm ki, biz gələcəkdə də işlərimizi bu istiqamətdə qurmalıyıq-yüksək intellektli, bilikli, bacarıqlı gənclər yetişdirmək ən böyük amalımız olmalıdır, çünki bizi qarşıda böyük işlər gözləyir. Azərbaycanın inkişafını olduğu yerdən daha da irəliləməsi, eyni zamanda Qarabağın, işğaldan azad olunmuş ərazilərin yenidən bərpası intellektlə, biliklə sıx bağlıdır.

Bu gün müstəqil Azərbaycan əzəmətlə işıqlı sabahlara doğru irəliləyir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə atdığımız hər addımda isə həm milli, həm də bəşəri dəyərləri özündə əks etdirən, qəlbi vətənpərvərlik hisi ilə döyünən, torpağımızın hər qarışı uğrunda canlarını fəda edən dəyərli, elmli gənclərimizi görməkdəyik-Vətən müharibəsi bu güc və sevginin bariz nümunəsi oldu. İndiki gənclərin yüksək mənəvi keyfiyyətlərini formalaşdıran isə ölkəmizdə milli təhsil siyasətimizi uğurla həyata keçirən, elm və bilik yollarında yorulmadan fəaliyyət göstərən müəllim ordusudur. Məhz Azərbaycan müəllimi sabahın hərtərəfli zəkaya malik olan vətəndaşını yetişdirir. Hazırda onlarla gəncimiz dünyanın müxtəlif ölkələrində tanınmış universitetlərdə öz təhsillərini davam etdirməkdədirlər. Bütün bunlar bir daha sübut edir ki, bu gün ölkəmizdə müasir standartlara cavab verən savadlı gənclik formalaşmaqdadır. Bunun üçün isə hər birimizin taleyində əhəmiyyətli yeri olan, bilik xəzinəsini daim insanların üzünə açan müəllimlərimizə borcluyuq. Bu məqamda İslam dünyasının dahi şəxsiyyəti Həzrəti Əlinin bir kəlamı yada düşür: "Mənə bir hərf öyrədənin kölesi olaram". Doğurdan da, müəllim öz biliyi, yüksək mənəvi keyfiyyətləri və əməlləri ilə cəmiyyətə layiqli töhfələr verir-bəşəriyyət bu dəyərli varlığın qarşısında baş əyməlidir.

Hal-hazırda məktəblərimizdə yüksək qiymətə layiq olan, öz sənətini ürəkdən sevən, yüksək peşəkarlığı ilə fərqlənən, cəmiyyətin onların qarşısında qoyduğu vəzifəni - hərtərəfli biliyə, onları tətbiq edə bilmək qabiliyyətinə, yüksək əxlaqi keyfiyyətlərə malik nəsil tərbiyələndirmək vəzifəsini şərəflə yerinə yetirən müəllimlər çoxdur. Bir çox sənət və peşə sahiblərindən fərqli olaraq müəllimlərin peşə bayramlarının dunya miqyasında qeyd olunması müəllimlik sənətinin başqa peşə və sənətlərdən yüksəkdə durduğunu, müəllimlərin bütün millət və xalqlar arasında böyük hörmətə və nüfuza malik olduqlarını sübut edir. Məhz bu inkişafın davamı olaraq, heç şübhəsiz ki, müstəqil Azərbaycanın müəllimlər ordusu xalqın gələcək xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edəcək, Vətənə layiq vətəndaşların yetişdirilməsində öz xidmətlərini əsirgəməyəcəklər. Hər birimizə yazmağı, öyrənməyi, düşünməyi öyrədən müəllimlər bizim qürur mənbəyimizdir.

**II YAZI**

# "Qarabağ" dastanının "Cəbrayıl" boyu



Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan üç rayondan biri olan Cəbrayıl Qubadlı və Zəngilan kimi 2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən İkinci Vətən müharibəsində müzəffər Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəliyi ilə qəhrəman milli ordumuz tərəfindən işğaldan azad edilən ərazilərimizdəndir. 44 gündə düşmənin 30 il ərzində torpaqlarımızda qurduğu keçilməz barrikadalar yerlə yeksan olundu. 30 il işğal düşmən tapdağında inləyən, doğmasını gözləyən Qarabağımız anası Azərbaycana qovuşdu. Doğmalarının addım səsi ilə üzü güldü torpaqlarımızın. Birbirindən gözəl, tarixi və mədəniyyət abidələri, yeraltı-yerüstü sərvətləri ilə zəngin olan yurd yerlərimiz öz sahiblərinə qaytarıldı.

## Cəbrayılın qələbə müjdəsi

2020-ci il 4 oktyabrda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etdi: Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını tökürdü. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bəli, Vətən müharibəsinin 7-ci günündə bu qədər böyük qələbənin əldə olunması heç də asan məsələ deyildi. Bütün bunlar dövlətimizin gücünü, ötən 20 ildə ölkənin iqtisadi vəziyyətinin yüksəlməsini, ordu quruculuğu üçün həyata keçirilən işlərin miqyasını göstərirdi. Və bir də xalqın birliyini, həmrəyliyini, böyütdüyümüz gənclərə əxz edə bildiyimiz Vətən sevgisini göstərirdi.

Həmin günlər bugünkü kimi gözlərimiz önündədir. Gecə-gündüz səfərbərlik idarələrinin qarşısı insanla dolu olurdu. Hər kəs cəbhəyə yollanmağa can atırdı. Torpaqların azad olunmasını-namus, şərəf məsələsini həll etməyə can atırdı. Cəbhədə yetərli qədər insanın olduğu bildiriləndə isə əlindən gələn yardımla cəbhəyə kömək etməyə çalışırdı. Bir sözlə, bütün xalq ayağa qalxıb Qarabağ məsələsinin-bu haqq işinin həllinə çalışırdı.

Azərbaycan 2020-ci ilin 44 günündə dünyaya elə bir həmrəylik, elə bir dövlət-xalq birliyi sərgilədi ki, Zəfərimizdən 3 il ötməsinə baxmayaraq hələ də həmin birlikdən tez-tez söhbət açılır.







## Qədim mədəniyyət mərkəzi

Cəbrayıl Kiçik Qafqaz dağlarının cənubşərqində, Gəyən düzü və Qarabağ silsiləsində yerləşir. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1049 kvadrat kilometrdir, ərazisi əsasən dağlıqdır. Araz çayının qırağı vaxtilə Tuqay meşələri ilə sıx olmuşdur. Arazboyu düzənliklərin torpaqları yüksək məhsuldarlığa malik tünd şabalıdı torpaqlardır. Məhsuldar olan bu torpaqlarda Cəbrayılın iri kəndləri - Böyük Mərcanlı, Soltanlı və sair yerləşir. Cəbrayıl rayonun ən yüksək zirvəsi Dağ Tumasdır (1580 m). Erməni işğalından əvvəl rayonda yaşı 400-500 olan 14 iri diametrli çinar ağacı, 104 kəhriz və 99 bulaq vardı. Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə təşkil edilmişdir. 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilmiş, 17 iyun 1964-cü ildə yenidən yaradılmışdır.

Rayon əhalisi arasında ərazinin adının VIII əsrdə yaşamış Cəbrayıl atanın adından alması ilə bağlı fikirlər var. Amma Cəbrayıldakı saysız-hesabsız abidələrin, mağaraların, qalaların, bürclərin, məbədlərin qalıqları bu yaşayış ərazisinin yaşının daha qədim olmasından xəbər verir. Rayonun köhnə qəbiristanlığında qədim yazılar yazılmış bir lövhə parçası aşkar olunmuşdur. Həmin yerdə, yolun qırağında isə iki başdaşı vardır. Başdaşılarının yuxarı hissəsində heyvan təsvirləridağ keçiləri və Qobustan qayaüstü təsvirlərini xatırladan müxtəlif tamqalar həkk edilmişdir. Cəbrayılın ətrafında müxtəlif bədii formaya malik qəbirdaşları vardır, onlardan qoç heykəli olan ikisi Azərbaycanın digər dağətəyi rayonlarındakı abidələrin analogiyasıdır.

Cəbrayıl rayonunda müxtəlif türbələr- Dağtumas kəndində XIII-XVI əsrlərə aid türbə, Şıxlar kəndində yerləşən Şıxbaba türbəsi (XIV əsr), Xubyarlı kəndində XVI əsrə aid səkkizguşəli türbə və onlarla başqa tarixi-dini memarlıq nümunələri vardır.

23 avqust 1993-cü il tarixində rayon Ermənistan ordusu tərəfindən işğal edilmiş, yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuş, işğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəymişdir.

Cəbrayıllı məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, çadır düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdılar.

## Xudafərin körpüləri

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu-IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir.

Tarixçilər yazırlar ki, Cəbrayılda nəinki təkcə Xudafərin körpüləri, eyni zamanda Azərbaycan memarlıq sənəti sahəsində mühüm yer alan bir çox monumental abidələr, qalalar, türbələr, məscidlər və sair var. Bu ərazilər Kür-Araz mədəniyyətinin təşəkkül tapdığı və Qədim Şərq mədəniyyətinin Qafqaza təsirində keçid məntəqələrindən, habelə qədim mədəniyyətlərin qovuşduğu yurd yerlərindən biridir.

Bu zənginlikləri özündə əks etdirən Cəbrayılın sentyabrın 27-də Böyük Mərcanlı, Nüzgar, oktyabrın 3-də Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq, 4-də Cəbrayıl şəhəri və Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal, 5-də Şıxəli Ağalı, Sarıcalı, Məzrə, 9-da Qaracallı, Süleymanlı, Əfəndilər, 15-də Doşulu, 19-da Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri və əhəmiyyətli yüksəklikləri, mövqeləri, bu ərazilərin fonunda isə Xudafərin işğaldan azad edildi.

Oktyabrın 18-də-Azərbaycanın Dövlət Müstəqilliyi günündə Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı. Həmin gün Xidafərinlə sanki üz-üzə dayanıb ona belə söylədim: Azadlığın, növrağın mübarək, Xudafərin. Nə gözəl tarix yazıldı aşırılarına. Sən axı 1991-ci ildə əldə etdiyimiz müstəqilliyi doyunca yaşamamışdın. Üçrəngli bayrağın üstündə bərqərar olduğun Arazın sularındakı əksini ətrafındakı zirvəsi səmaya toxunan dağlara, sıldırım qayalıqlara yaya bilməmişdin. Bayrağın mübarək, azadlığın mübarək, Xudafərin. Sən Allaha səni yaratdığı üçün təşəkkür edirsən əsrlərdir. Biz azərbaycanlılar da Allaha səni bizə yenidən qovuşdurduğu üçün minnətdarıq, ey ulu yurdumuz, müqəddəs torpağımız Cəbrayılın göz bəbəyi...

## Cəbrayıla yeni həyat gəlir

Düşməndən azad edilən torpaqlarımızın hər birində müharibə bitən gündən bərpa işləri gedir. Cəbrayıl rayonu da düşmənin daşı daş üstündə qoymadığı yurd yerlərimizdən biri olduğu üçün həyata keçirilən işlərlə yeni bir həyata doğru addımlamaqdadır.

Genişmiqyaslı bərpa işləri ilə Cəbrayıla 30 il əvvəlki çağlarından da gözəl görüntülər bəxş olunur. Cəbrayılda bu gün yollar abadlaşdırılır, qəsəbə və kəndlər salınır, məktəb, xəstəxanalar tikilir. Rayona elektrik enerjisi verilməsi üçün stansiyalar qurulur. Sənaye Parkı tikilir. Nəzərə alsaq ki, dövrümüz 30 il əvvəlkindən daha müasirdir, belə olan təqdirdə bu müasirliyin qədim torpaqlarımıza verəcəyi yenilikləri yaxın gələcəkdə görəcəyik. Qədimliyin fonunda müasirliyin tətbiqi isə hər biri turizm üçün böyük əhəmiyyətə malik torpaqlarımıza gələnləri heyran edəcək.

Cəbrayılda tətbiq olunanların hər biri yaxın gələcəkdə ata-baba yurdlarına qayıdacaq sakinlər üçün bütün yenilikləri əlçatan edəcək.

Dövlətimizin başçısı necə ki, ötən 20 ildə Qarabağın azad olunması üçün yorulmaz fəaliyyət göstərdi, Zəfəri xalqına nəsib etdi, bu gün də həmin torpaqların qədimliyini qoruyub saxlamaqla müasir formada bərpasına rəhbərlik edir. Bu isə bütün azad torpaqlarımıza təbii ki, yeni həyat gətirir...

***Mətanət Məmmədova***

# Fars şovinizminin sonu yaxınlaşır

## Güneyli soydaşlarımızın haqq savaşı qələbə ilə başa çatacaq

2020-ci ildə Azərbaycan 30 il işğal altında olmuş torpaqlarını 44 günlük savaşla azad edib, dünya hərb tarixinə zəfər salnaməsi yazdı. Hansı ki, bu zəfər türk-müsəlman dünyasında yeni oyanışa və haqq savaşında qələbə qazanmaq ümidlərini artırdı. Sentyabrın 27-nə qədər müsəlman dünyasında elə fakir formalaşmışdır ki, onların milli problemlərinin həllində ciddi əngəllər var və bu əngəlləri aşmaqda böyük güclər hər cür manеələr yaradarlar. Bu baxımdan ümidsiz idilər, hətta gələcəyə baxışlarında narahat yanaşmalar mövcud idi. Lakin Azərbaycanın erməni faşizmini məhv edib parlaq qələbə qazanması dünyada ümidsiz baxışlarda bir ümid çırağı yaratdı. Ümummilli problemlər məngənəsində əzilən millətlər Azərbaycanın parlaq qələbəsindən ruhlanaraq qarşılarına qoyulan məqsədlərinə çatmaq üçün ayağa qalxmaqdadırlar. Fransanın müstəmləkəsi altında əzilmiş Nigeriyanın, Qabonun və Afrikanın müxtəlif xalqlarının ayağa qalxaraq azadlıqları uğrunda savaş aparmaları qeyd olunanlar misal ola bilər. Verilən məlumatlara görə, Qabonda hakimiyyəti ələ alan dövləti yenidən qurmaq, o cümlədən ölkənin ərazi bütövlüyünü, insanların və onların əmlakının təhlükəsizliyini qorumaq niyyətindədir. Bundan əlavə, qarşıya qoyulmuş vəzifələr qismində siyasi, iqtisadi və digər sahələrdə islahatların aparılması, məhkəmə sisteminin müstəqilliyinin gücləndirilməsi, insan hüquqlarının təşviqi və müdafiəsi kimi vəzifələr göstərilir. Nigeriyada Fransa müstəmləkəsinə qarşı xalqın mübarizəsi qələbə ilə başa çatdı. Artıq Nigeriya azad, müstəqil dövlətini qurmaqdadır.



### Yaxın vaxtlarda Təbrizdə Güney Azərbaycanın bayrağı qaldırılacaq

Bütün bunlar qeyd etdiyimiz kimi, Azərbaycanın Qarabağda qazandığı parlaq qələbədən qaynaqlanır. Oyanış, dirçəliş, milli mücadilə Güney Azərbaycanında da davam etdiriləcəyi şübhəsizdir. Çünki güneyli soydaşlarımızın başladığı müstəqil dövlət quruculuğu yarımçıq qala bilməz. Əksinə, Azərbaycanın Qarabağda separatçıları və terrorçu hərbi birləşmələri məhv edib, suverenliyini bərpa etdikdən sonra güneyli soydaşlarımızın müstəqil dövlətçiliyini bərpa etmək mübarizələri daha qətiyyətli xarakter alıb. Hazırda davam edən və sürətlə genişlənməkdə olan etirazlarda onu deməyə əsas verir ki, yaxın vaxtlarda Təbrizdə Güney Azərbaycanın bayrağı qaldırılacaq. Dünyaca tanınmış, nüfuzlu "The Jewish Press" nəşri də o fikirdədir ki, hazırda müvəqqəti olaraq fars-molla rejiminin nəzarət etdiyi torpaqlarda Güney Azərbaycan dövləti qurulacaq. "The Jewish Press"də dərc edilən məqalədə o fikirdə vurğulanıb ki, etirazçılar Şimali Azərbaycanla birliyə doğru irəliləyəcək, Avropa Şurasına qoşulacaq, Qərb dəyərlərini qəbul edəcək, eyni zamanda, bölgədə sülh və sabitliyə öz töhfəsini verəcək müstəqil Güney Azərbaycanı qurulmasını arzulayırlar: "Nəticədə, zəifləyəcək molla rejimi ölkə əhalisinin 45%-ni təşkil edən azərbaycanlılardan bölgədə sabitliyi pozmaq üçün istifadə edə bilməyəcək. Bundan sonra azad, demokratik Güney Azərbaycan Dövləti yaranacaq".

### Güneylilərin azadlığa gedən yolunu molla rejimi dayandıra bilməyəcək

Fars-molla rejimi Təbrizdə Azərbaycan bayrağının dalğalanmasının qarşısını almaq üçün hər cür zorakı metodlardan istifadə edir. Azərbaycanlılar küçədən oğurlanıb zindanlara atılır, şərlənib həbs edilir, işdən çıxarılır, adi hüquq və azadlıqları belə pozulur. Yəni, fars-molla rejiminin azərbaycanlılara qarşı repressiya maşını gecə-gündüz dayanmadan işləyir. Lakin azadlığa gedən yolu heç bir qüvvə, o cümlədən molla rejimi dayandıra bilməyəcək. Artıq bütün dünya azərbaycanlıları, xüsusilə də, Bakıdakı ziyalılar, ictimaiyyət nümayəndələri güneyli soydaşlarımıza öz dəstəyini göstərməkdədirlər. Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Qarabağı erməni terrorçularından təmizləməklə müsəlman-türk dünyasına qürur yaşadan İlham Əliyevin güneylilərə dəstək ifadə etməsi Güney Azərbaycanında mübarizə əhval-ruhiyyəsini daha da genişləndirib. Xatırlatmaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda demişdir: "Ümid edirəm ki, İran hökumətinin ermənipərəst hərəkətləri çox kövrək sülhə xələl gətirməyəcək. Hesab edirəm ki, azərbaycanlıların hisslərini və bizim maraqlarımızı nəzərə almağın zəruriliyi barədə daha çox anlayış nümayiş olunacaq. Mən İranın əvvəlki üç prezidenti ilə - Prezident Hatəmi, Prezident Əhmədinejad və Prezident Ruhani ilə işləmişəm. Bütün bu illər ərzində heç vaxt indiki vəziyyətimizə oxşar bir şey olmayıb. Heç vaxt Azərbaycana qarşı nifrət və təhdid dolu sözlər işlədilməyib, sərhədimizdə heç vaxt hərbi təlim keçirilməyib, ancaq bir neçə ay ərzində iki hərbi təlim keçirilib. Deməli, bu, o deməkdir ki, bu vəziyyəti yaradan biz deyilik. Biz bu vəziyyətin daha tez bitməsini istəyirik. Biz bütün qonşularımızla sülh və dostluq münasibətləri istəyirik".

Fars-molla rejiminin iyrənc siyasəti bəşəriyyətin varlığına təhlükə hesab olunur. Yəni, molla rejimi öz xalqı üçün, əsasən də, güneylilər üçün nə qədər təhlükədirsə, bir o qədər də dünya üçün təhlükə mənbəyidir. Çünki bu rejim Ermənistan kimi terroru dövlət siyasətinə çevirib. Molla rejimi hər il terrorizmin maliyyələşməsinə 100 milyardlarla dollar vəsait ayırır. Suriyada, Əfqanıstanda, İraqda, Nigerdə, Afrikada və digər yerlərdə tökülən qanlarda fars-molla rejiminin əli və rolu var. Öz xalqı acından qırılır, yoxsulluq və aclıq içində inildəyir, terrora 100 milyard dollar pul xərcləyir. Ölkədə insan hüququ və azalıqlarının müdafiəsindən söhbət gedə bilməz. Addımbaşı insanlar təqib olunur, döyülür, təhqir olunur, zindanlara atılaraq çürüdülür. Azərbaycanın Milli Məclisin deputatı Nəsib Məhəməliyev bu barədə deyir: "İran və insan hüquqları tam antoqonist fikirlərdir. Hansı insan haqlarından danışmaq olar ki, 21-ci əsrdə insanları küçələrdə qaldırıcı kranlardan asır, fərqli düşüncələrinə görə edam edirlər. Özünü dini lider adlandıran şəxs meydanlarda etiraz səslərini qaldıranlara qarşı amansız davranmaları barədə hərbçilərə əmr verir, səkkiz, doqquz yaşlı qız uşaqlarının siğə yolu ilə ərə verilməsini İslam dininə uyğunluğunu bəyan edir. Bir-iki saatlıq siğə ilə fahişəliyi stimullaşdırır. Bütün bunlar İslam deyil, əksinə, İslam adına ləkədir. İranın təbliğ etdiyi "dinin" əsl İslam dininə, müqəddəs Qurani-Kərimə heç bir aidiyyəti yoxdur. Bunun kökündə duran əsas səbəb fars-molla rejiminin hələ də Sasanilər imperiyasının darmadağın edilməsi ilə barışa bilməməsidir. Quranın saxtalaşdırılmasından tutmuş, dinə aidiyyəti olmayan çoxsaylı adət-ənənələrin, nağılların uydurulması bununla əlaqədardır. İranın İslam statusundan məhrum edilməsi ilə bağlı hüquqi mexanizm yoxdur. Belə məsələlər hər bir ölkənin öz işidir. İran onsuz da, antiinsani, antibəşəri siyasətinə görə 1979-cu ildən bəri beynəlxalq sanksiyalar altındadır. Yaxşı olardı ki, İslam Əməkdaşlıq Təşkilatı Ərəb Liqası, Afrika Birliyi kimi beynəlxalq təşkilatlar da İranın əcaib rejimi ilə hər hansı əməkdaşlıqdan imtina etsinlər. Hər kəsə bəllidir ki, İranın əsas amalı İslam dininin parçalanması, İslam ölkələrində anarxiyanın, xaosun yaradılmasıdır. İranın Yəməndə, İraqda, Suriyada, Livanda və başqa ölkələrdə törətdiyi cinayətlər xüsusi amansızlıqlarla, vəhşiliklərlə müşayiət olunmuş, milyonlarla insanın faciəsi ilə nəticələnmişdir. Din pərdəsi altında, "bismillahir-rəhmanirrəhim" kəlməsi ilə belə ağır cinayətləri ancaq İblis edə bilər".

### Dünyanın təhlükəsizliyi fars-molla rejiminin süqutundan keçir

Fars-molla rejiminin terrora daha çox üstünlük verməsi və daxildə öz xalqına qarşı zorakılıq etməsi dünyanın aparıcı dövlətlərini və beynəlxalq təşkilatlarını düşündürməkdədir. Təkcə bu rejimə sanksiyalar tətbiq etməklə işlərini bitmiş hesab etmirlər, əməli addımlar atmaqla terror yuvasını dağıtmağa çalışırlar. Lakin hesab edirəm ki, əməli addımlar Liviyada, Suriyada, İraqda həyata keçirilən hərbi müdaxilə formasında olmalıdır. Çünki molla rejimini iqtisadi, maliyyə sanksiyaları ilə sıradan çıxarmaq çətin olacaq. Bəlkə də nəticə əldə etmək olar. O mənada ki, molla rejimi maliyyə sanksiyaları səbəbindən ciddi problemlərlə üzləşəcək və nəticədə terror təşkilatlarına maliyyə yardımlarını dayandırmalı olacaq. Bu halda tərəflər arasında konfliktlər yaranacaq ki, nəticədə itirən tərəf molla rejimi olacaq. Ancaq bu da problemin həlli yolu deyil. Yalnız hərbi müdaxilə ilə terror rejimini məhv edib, dünyaya sülh və təhlükəsizlik bəxş etmək olar. Əks halda, bəşəriyyət sakit, təhlükəsiz yaşam tərzindən məhrum olacaq. Yəni, dünyanın istənilən dövləti hər an təhdidlərlə üzləşə bilər. Problemin həllinin digər yolu isə beynəlxalq təşkilatların və böyük güclərin 50 milyonluq güneyli soydaşlarımıza hərtərəfli dəstək göstəməlidirlər. İlk növbədə, yaranan Güney Azərbaycan dövləti rəsmən tanınmalı, onun strukturları ilə əməkdaşlıq edilməli, əhaliyə maliyyə və siyasi dəstək göstərilməlidir. Bu kimi vasitələrlə fars-molla rejimini çökdürüb, insanlığı beynəlxalq terrorizmdən xilas etmək mümkündür.

**İ.ƏLİYEV**

## AzerTelecom-un Baş icraçı direktoru nüfuzlu "Global Leadership Women in Tech®" Mükafatına layiq görülüb

AzerTelecom şirkətinin Baş icraçı direktoru Ana Nakaşidze "Women in Tech® Caucasus and Central Asia Awards (CCA) 2023" tədbirində nüfuzlu "Global Leadership Women in Tech®" mükafatına layiq görülüb. Ana Nakaşidze kimi nüfuzlu qadın liderlərin nailiyyətlərini irəli çəkən bu mükafat Qafqaz və Mərkəzi Asiya regionunda texnologiya sənayesinin inkişafına mühüm töhfələr vermiş qadınların xidmətlərini tanıdır. 6 ölkədən 80-dən çox iştirakçının qatıldığı tədbir Gürcüstanın paytaxtı Tbilisidə sentyabrda baş tutub. "Women in Tech® CCAAwards" texnologiya sahəsində gender müxtəlifliyi, bərabərlik və inklüzivliyi təşviq etməyə həsr olunan daha geniş "Women in Tech® Global Movement"in (Qadınlar Texnologiyada Qlobal Hərəkatı) bir hissəsidir. Bu hərəkat texnologiya sənayesinə əhəmiyyətli təsir göstərmiş qadınların töhfələrini və yeniliklərini nümayiş etdirmək üçün bir platformadır.




Ana Nakaşidzenin nüfuzlu "Global Leadership Women in Tech®" Mükafatına layiq görülməsi onun texnologiya sənayesində fəaliyyətinə olan sadiqliyini göstərməklə yanaşı, həm də STEAM sahəsində çalışan xanımları ilhamlandırır. Ana Nakaşidze telekommunikasiya sənayesində 20 ildən artıq zəngin təcrübəyə sahibdir. AzerTelecom şirkətinin Baş icraçı direktoru vəzifəsinə təyin olunmazdan əvvəl Ana Nakaşidze Gürcüstanda, eləcə də qlobal miqyasda dövlət, özəl və konsaltinq sektorlarında müxtəlif rəhbər vəzifələri tutub.

"Women in Tech® Global Movement"də iştirak edəcək 43 finalçı arasında Global Leadership Women in Tech®" mükafatına layiq görülən Ana Nakaşidze ilə yanaşı, ölkəmizi təmsil etmiş daha iki istedadlı xanım - Leyla Orucova və Ləman Əliyeva da müvafiq kateqoriyalarda "Start-Up Award" və "Aspiring Teen Award" mükafatlarını qazanıblar. Builki "Women in Tech® CCA" tədbirinin qalibləri 16 noyabr 2023-cü il tarixində Dubayda keçiriləcək "Women in Tech® Global Movement Awards"-ın finalında iştirak edəcəklər.

Qeyd edək ki, Ana Nakaşidze İKT və yüksək texnologiyalar sahəsində bir çox nüfuzlu mükafatlara layiq görülüb. Ana Nakaşidze bu ilin mart ayında "Capacity Media" nəşrinin tərtib etdiyi və İT və telekommunikasiya sahəsində 20 görkəmli qadının yer aldığı nüfuzlu "Women to Watch" siyahısında yer alıb. Bundan əlavə, xanım Nakaşidze "Capacity Media" nəşrinin hər il tərtib etdiyi və telekommunikasiya sənayesinin ən nüfuzlu liderlərinin yer aldığı "Power 100" siyahısına daxil edilib. AzerTelecom Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Rusiyalı ekspertlər: ”Ermənistan Qərbə arxalanmaqla Zəngəzurda da uduza bilər”

## "Qarabağda Ermənistan üçün çox xoşagəlməz nəticə, məhz İrəvanın Moskvadan uzaqlaşma siyasətinin nəticəsidir"

“Ermənistan” adlı kövrək kiçik gəmi Rusiya sahillərindən qərbə doğru sürətlə geosiyasi dönüş edir. Belə ki, Ermənistanın müdafiə naziri Suren Papikyan MDB ölkələrinin müdafiə nazirlərinin Tula görüşünə getməyib, İrəvanın Gümrüdə yerləşdirilmiş 102-ci baza üçün Moskvadan ödəniş tələb etmək niyyətində olduğu və hakim ”Vətəndaş sazişi” partiyasının nümayəndələrinin Rusiya telekanallarının Ermənistanda yayımına qadağa qoyulmasına açıq çağırış ilə bağlı söhbətlər yayılıb. Yəni, Paşinyan Ermənistanında açıq-aşkar anti-Rusiya meyili var.






**”İrəvan Qərbə arxalanarsa, Zəngəzur dəhlizi ilə bağlı məsələnin Ermənistan üçün nə ilə nəticələnəcəyi məlum deyil”**

Rusiya İrəvandan edilən bu demarşlara necə cavab verəcək? Rusiyalı ekspertlər Svyatoslav Andrianov, Stanislav Tkaçenko və Stanislav Mitraxoviç ”Caliber” analitik mərkəzinə vəziyyəti şərh ediblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Siyasi Təhlil və İnformasiya Təhlükəsizliyi Mərkəzinin direktoru, Almaniya Xarici Siyasət Şurasının üzvü, Avrasiyada Strateji Tərəfdaşlıq üzrə Berlin Komitəsinin sədri Svyatoslav Andrianovun qeyd etdiyi kimi, baş verənlər məhz mediada dəfələrlə bəyan edildiyi kimidir.

”Nikol Paşinyan məqsədli şəkildə qərbyönlü siyasət yürüdür, bu məsələdə o, ardıcıl və nisbətən proqnozlaşdırıla biləndir. Gözlədiyim kimi, Ermənistan cəmiyyətinin bir hissəsinin Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətdən qəzəblənməsinə cavab olaraq Paşinyan və komandası bu qəzəbi Rusiyaya qarşı yönəltməyə başladılar, dedilər ki, hər şeydə günahkar Moskvadır, Rusiya heç nə etmədi və sülhməramlılar onlara xəyanət etdi. Bu halda, günahkar ”təyin olunduğuna” görə, ona qarşı tədbir görülməlidir”, - politoloq qeyd edib.

Həmsöhbətimizin fikrincə, Ermənistan-Rusiya münasibətlərindəki hazırkı vəziyyət Rusiyanın Cənubi Qafqazda təsirini zəiflətməyə hesablanıb.

”Paşinyan Rusiyaya qarşı təhdidlərini həyata keçirə biləcəkmi? Bəzilərini- bəli, amma bəzilərini- yox, çünki onun (ən azı hazırda) onları həyata keçirmək üçün imkanları və resursları yoxdur. Bu və ya digər şəkildə Moskvanın Cənubi Qafqazdakı imicinə ciddi zərbə dəyib və əgər Kreml tezliklə xarici siyasətində bu regionun prioritetini artırmasa, ”yeni Qafqaz” üçün yeni qaydalar yazılacaq”- S.Andrianov vurğuladı.

İqtisad elmləri doktoru, Sankt-Peterburq Dövlət Universitetinin professoru Stanislav Tkaçenkonun fikrincə, Rusiya Qarabağ probleminin belə sürətlə həllinə o qədər də hazırlıqlı deyildi.

”Rusiya diplomatiyası çox yaxın vaxtlara qədər düşünürdü ki, 2025-ci ilə qədər danışıqlar aparılana və Qarabağ probleminin əsas aspektləri diplomatlar tərəfindən razılaşdırılana qədər vaxt var. Görünən odur ki, İrəvan da 2025-ci ilə kimi vaxtın olduğunu hesablamışdı, ona görə də Bakının kifayət qədər açıq və birmənalı şəkildə etdiyi Qarabağın demilitarizasiya prosesinin ləngiməsi və Zəngəzur dəhlizinin açılması ilə bağlı xəbərdarlıqlara məhəl qoymadı. Bu yay Azərbaycan və Ermənistan sərhədlərində, eləcə də Qarabağda vəziyyət kəskin şəkildə gərginləşməyə başlayanda Moskva hadisələrə az təsir edərək, sadəcə, onları izlədi”, - politoloq qeyd edib. Tkaçenko hesab edir ki, Rusiya üçün son aylar bu məsələlərdə çox şey dəyişib. Rusiyanın təhlükəsizliyinin əsas problemləri Şimali Qafqaz çərçivəsində həll olunsa da, əsas rəqib ABŞ və NATO ölkələri olsa da, Cənubi Qafqaza münasibətdə yeni siyasətin işlənib hazırlanması zərurəti dərk edilib və bu məsələnin həll olunması hazırda müzakirə olunur.

”O cümlədən, Türkiyə və Azərbaycanla münasibətlərin yeni modallığının inkişaf etdirilməsi məsələsi, o cümlədən həm qarşılıqlı maraqlar sferasında əməkdaşlıq, həm də Rusiya üçün faydalı olmayan sahələrdə əlaqələrin məhdudlaşdırılması.

Peskov və Zaxarovanın Ermənistanla münasibətlərə dair son bəyanatları- orta dərəcədə sərt və çox tənqidi- Cənubi Qafqaz üçün bu keçid dövrünü əks etdirir. Moskva Ermənistanın təhlükəsizlik problemlərinin həllinə tez-tez bir-birinə açıq düşmənçilik edən dövlətləri cəlb etmək cəhdlərini təəccüblə izləyir: ABŞ, İran, Hindistan, Fransa və s. Görünən odur ki, Moskva hələ də İrəvandan gələn bu diplomatiyanın Ermənistanın hazırkı rəhbərliyinin ümidsizliyi, səriştəsizliyi və ya xəyanəti əlaməti olduğuna qərar verməyib. Rusiyanın Ermənistanın indiki və gələcək hərəkətlərinə reaksiyası sonda hansı nəticənin çıxarılmasından asılıdır”,- S. Tkaçenko bildirib.

Milli Enerji Təhlükəsizliyi Fondunun eksperti və Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin elmi işçisi Stanislav Mitraxoviçin fikrincə, Rusiya çətin ki, erməni tərəfinin addımlarına əsaslı cavab versin, çünki o özü də münaqişə üçün heç bir addım atmır. O qeyd edib ki, Rusiya uzun müddətdir ki, baş nazir Paşinyanın ritorikasını açıq şəkildə qeyri-dostluq kimi qəbul edir. Amma nə münasibət göstərirsənsə elə də cavabını alacaqsan- Ermənistanda deyəsən, bunu tam dərk etməyiblər.

”Məsələn, qeyd edərdim ki, Qarabağda Ermənistan üçün çox xoşagəlməz nəticə məhz İrəvanın Moskvadan uzaqlaşma siyasətinin nəticəsidir. İndi Paşinyan bundan sadəcə olaraq bəhrələnir. Üstəlik, Paşinyanın qarışmadığı macəra qalmayıb : o, amerikalılarla hərbi təlimlər keçirə bilib, arvadı Bakının Qarabağda antiterror tədbirlərinə az qalmış Kiyevə getməyə nail olub. Bəs Rusiya bütün bunlara necə reaksiya verməlidir? Məsələn, Dmitri Medvedev Telegram-da məşhur paylaşımında Paşinyanın hərəkətlərini kəskin şəkildə pisləyib- bu, artıq Rusiyanın kursunun və baş verənlərə baxışının nümayişidir. Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda antiterror tədbirləri həyata keçirməsi və bu rejimin ləğvi ilə bağlı Rusiyanın neytral mövqeyi, artıq qeyd olunduğu kimi, özlüyündə Moskvanın reaksiyasıdır, bunun nəticəsidir”, - deyə Mitraxoviç bildirib.

Eyni zamanda, onun sözlərinə görə, Ermənistan Fransa və ABŞ-dan dəstək axtarsa da, Rusiyanın Gümrüdəki hərbi bazası böyük ehtimalla qalacaq. Amma İrəvan yalnız bu ölkələrə arxalanıb Rusiyanı unudubsa, o zaman Zəngəzur dəhlizi ilə bağlı məsələnin Ermənistan üçün daha nə ilə nəticələnə biləcəyi məlum deyil.

”Doğrusu, mən Ermənistanın yerində olsaydım, Rusiyadan üz döndərməzdim. Kremlin hansısa konkret hərəkətindən danışsaq, məncə, hər şey Paşinyanın özünün nə edəcəyindən asılıdır. Əgər o, Zəngəzur dəhlizi məsələsində Rusiyaya arxalanmaq üçün hansısa münasibətləri saxlamağa çalışırsa, hansısa kompromis tapmaq olar. Əgər Paşinyan Rusiyadan uzaqlaşmağa davam edərsə, KTMT-dən çıxsa və sairə, o zaman həmin Zəngəzur dəhlizi ilə bağlı məsələ onun üçün Qarabağdan da çətin ola bilər, çünki o zaman problemini təkbaşına həll etməli olacaq. Və burada, məncə, Qərb potensial olaraq yeni münaqişəyə qarışmayacaq. Hər kəs öz taleyinin sahibidir və əgər Paşinyan bu variantı seçibsə, deməli, bu, onun seçimidir”, - deyə S.Mitraxoviç yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

## FELYETON



# Molla əmi, nə edək?..

Deyirik, ay Molla əmi, vaxtın olanda, bir biz tərəflərə keçəsən, zəhmət olmasa, səninlə bir az məsləhət-məşvərətimiz olacaq. Bizə bir yol göstərəsən, görək, nə edək ki, bu müxalifətin ürəyini sevindirə, üzünü güldürə bilək. Axı nə edirik, alınmır ki, alınmır...

Ay Molla əmi, bunlar o illər hakimiyyətdə olduqları vaxt ölkə ölmüşdü, fatihəsi də çoxdan verilmişdi. Torpaqlar da erməniyə satılmışdı, üstündən də su içilmişdi. Şəhidin, qazinin sayı-hesabı vardı məgər? Xalq da qan ağlayırdı.

Deyirsən sonra nə oldu? Nə olacaq, aradan bir qərinə keçdi. Budur da, ölkə yenidən dirildi, şükürlər olsun. Xalqına sahib çıxdı, ordusunu qurdu, özü də ki, dünya ilə bir oldu. 90-larda ermənin yiyələndiyi torpaqları da geri aldı. Ay Molla əmi, sən Allah, sən qocaman adamsan, 270 ildən bəri bu ölkədə bir qarış torpağın geri alındığını görmüşdün? Yox. Bax, Qarabağ geri alındı, torpaqlarımızdakı quldur dəstələrinin axırına çıxdıq. İndi də bu dövlət Qarabağı yenidən qurur ki, bəs 30 ildə evindən, elindən, yurdundan didərgin düşmüş soydaşlarımız doğma yurduna qayıtsın da...

Molla əmi, bizim bu müxaliflərimiz var ha, bu xalq gülür, sevinir, lakin bunların üzü gülmür axı. Bax, ölkə qüdrətləndi, üzləri gülmədi, ordu yarandı, sevinmədilər, Qarabağı aldıq, yenə üzləri gülmədi. Dedilər, ölkə az qüdrətlənib, bundan artıq olmalı idi. Ordunun nəyi var, daha yaxşı olmalı idi. Ordu getdi Qarabağı aldı, ölkənin də, özünün də qüdrətini göstərdi, bu dəfə sözləri bitdi, dedilər, sağ olsun ordu. Lakin bu ordunun sərkərdəsindən heç söz açmadılar. Biz də dedik, yəqin bunların savadı yoxdur, bilmirlər onu ki, sərkərdəsiz ordu olar?..

Yaxşı, Qarabağı dirçəltməyə başladıq, yenə üzləri gülmədi. Erməni Qarabağa silah daşıdı, keçid-buraxılış məntəqəsi yaratdıq ki, bu qonşuluqdan kənar olmuşlara nəzarət edək, oraya silah aparmasınlar, bizim müxaliflər az qaldılar ağlamağa ki, ermənin yolunu niyə kəsmisiniz? Ay Molla əmi, bizi əsrlərdi tanıyırsan, yol kəsənə oxşayırıq?

Sonra Qarabağda bir yığnaq quldur əmələ gəldi. Onların da axırına çıxdıq, yenə razı qalmadılar. Erməni Qarabağdan gedir, öz xoşu, arzusu ilə, yenə sevinmədilər. Hələ arada dedilər ki, bunlar niyə gedir? Nə bilək, niyə gedirlər, məgər onlara, get, deyən olmuşdu? Belə istədilər, belə də etdilər də.

Hə, Molla əmi, sən ağsaqqal, dünya görmüş adamsan, bizə bir yol göstər, görək, bunların üzünü necə güldürək? Adamın yazığı da gəlir ey... Hamı deyir-gülür, bunlar bürüşüb durublar bir kənarda. Deyirsən, niyə axı bütün xalq bir yandadır, bunlar bir yanda? İndi sən de, biz nə edək ki, xalqın üzündəki gülüşdən bir azca da bunların üzünə sıçrasın?

Molla əmi də, sağ olsun, sonadək bizi diqqətlə dinlədi. Sonra da dedi ki, vallah, mən ”Tarixi-Nadir”i bir neçə dəfə oxuyub başa çıxmışam, lakin belə müşküllə birinci dəfədir qarşılaşıram. Görünür, siz bunları incik salmısınız. Bu müxalif dediyiniz nə istəyib, verməmisiniz ki, onlar da nə edirlərsə, könülləri gülmür ki, üzlərinə çıxa, siz də görəsiniz. Biz də nə deyəcəyik ki? Dedik ki, hakimiyyət istəmişdilər. Molla əmi başını bulayıb dedi: -Hə, anladım, ay bala, belə deyin də, bunların üzü çətin gülər...

***Mətanət Məmmədova***

SON SƏHİFƏ

SƏS

4 oktyabr
2023-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Azərbaycan universitetləri reytinq cədvəlində niyə aşağıdadır?

## TƏHSİL EKSPERTİ AÇIQLADI



"Çox təəssüf ki, Azərbaycan universitetləri beynəlxalq reytinq cədvəlində heç də yaxşı yerdə qərarlaşmır. Hətta çox az sayda universitetimiz var ki, onlar beynəlxalq reytinq cədvəlində yer tuta bilirlər. Diqqət yetirdikdə görürük ki, bunun əsas səbəblərindən biri müəllimlərin elmi araşdırmalar, məqalələr üçün kifayət qədər vaxtlarının olmamasıdır. Müəllim düşünür ki, əgər elmi araşdırmaya bu qədər çox vaxt ayırmaq dərs saatının az olması deməkdir. Dərs saatının az olması da sözsüz ki, birbaşa maaşa təsir göstərəcək". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Adil Vəliyev deyib.

Onun sözlərinə görə, dolanışığının az olması üçün müəllim normal iş saatından sonra belə kurslarda, hazırlıqlarda dərs keçir: "Hesab edirəm ki, universitetlərdə bu problem aradan qalxmalıdır. Ümumiyyətlə, müəllim üçün məhdud iş saatı tətbiq edilməməlidir. Müəllimə elmi araşdırmalar üçün şəraitin yaradılması həm reytinq cədvəllərində universitetlərimizin yüksək pillələrdə yer almasına səbəb ola bilər, həm də dövlətimiz adına yaxşı nəticələr əldə edərik. Bundan əlavə, bildiyiniz kimi beynəlxalq reytinq cədvəllərində yalnız məqalələr deyil, universitetdə dərs keçən professor sayları, xarici müəllimlərin və tələbələrin sayı da diqqətə alınır".

Təhsil eksperti sözlərinə davam edərək qeyd edib ki, əsas nüanslardan biri Azərbaycanda elmi dərəcə almağın çətin məsələ olmasıdır: "Düşünürəm ki, bunu biraz daha asanlaşdırmaq lazımdır. Doğrudur, hər istəyənə elmi dərəcə vermək olmaz. Sadəcə olaraq bu prosesin sənədləşdirmə və prosedur qaydalarını asanlaşdırmaq problemin aradan qalxmasına kömək edə bilər. Çünki Azərbaycanda elmi ad ala bilməyən gənc alimlərimiz var ki, onlar dünyanın təhsil sahəsində top ölkələrində rahatlıqla elmi dərəcə ala bilirlər. Bu o demək deyil ki, Azərbaycanın təhsil sistemi digər ölkələrinkindən daha yüksəkdir. Sadəcə olaraq bizdə bürokratik əngəllər var ki, onlar da aradan qalxsa təhsilin səviyyəsi kifayət qədər yüksək olar".

*Ləman Sərraf*

# Azərbaycanın ən sürətli şəbəkəsi indi Xankəndi şəhərində

Bakcell şirkəti şəbəkəsini Xankəndi şəhərində uğurla istifadəyə verib. Şirkətdən verilən məlumata əsasən, Bakcell-in şəbəkəsi Ağdərə və Xocalı da artıq fəaliyyətdədir. Bununla da, şirkətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında quraşdırılmış baza stansiyalarının sayı 120-dən yuxarıya çatdırılıb. Burada quraşdırılmış baza stansiyaları ilə Bakcell şirkəti Qarabağ bölgəsində ən müasir səs texnologiyası olan VoLTE xidmətini və ölkənin ən sürətli mobil internet şəbəkəsini öz abonetlərinin ixtiyarına verib.




Bakcell şirkəti Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda zəruri infrastrukturun qurulması istiqamətində, eləcə də ən son texnologiyalarının bu bölgəyə gətirilməsində genişmiqyaslı fəaliyyətini daha da gücləndirəcəkdir.

# Sementin bahalaşması mənzil bazarına necə təsir göstərəcək?

## İQTİSADÇI DANIŞDI



"Sementin bahalaşmasının mənzil qiymətlərinə təsir edəcəyini düşünmürəm". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli deyib. Onun sözlərinə görə, tikinti materialları 2021-2022-ci illərdə bahalaşma olmuşdu: "Lakin 2022-ci ilin sonlarından başlayaraq, bu qiymətlər aşağı düşsə belə, bu mənzil və tikinti bazarında hiss olunmur.

Hazırda da bir sıra tikinti materiallarının qiymətlərində enmələr müşahidə olunur. Bu baxımdan da sementin bahalaşması tikinti və mənzil bazarına təsir etmir. Çünki bəzi məsulların qiymətlərindəki enmələr ilə digərlərində olan artım biri-birini kompensasiya edir".

*Səbinə Hüseynli*

# Messi Modriçi "İnter Mayami"də görmək istəyir

"İnter Mayami" "Real"ın futbolçusu Luka Modriçlə yaxından maraqlanır. Qol.az xəbər verir ki, bu barədə İspaniya mətbuatı məlumat yayıb. Transfer üçün təşəbbüsü klubun artıq xorvatiyalı müdafiəçi ilə görüş keçirən sahibi Devid Bekhem göstərib.



Bununla belə, komandanın futbolçularından Lionel Messi Modriçi MLS təmsilçisində görməyi daha çox istəyir. Buna baxmayaraq, Luka ən az 2023/24 mövsümünün sonuna qədər "Real"da qalmaq niyyətindədir. Üstəlik, ötən yay Modriç Səudiyyə Ərəbistanından bir klubun böyük təklifini rədd etmişdi. Qeyd edək ki, Modriç 2012-ci ildən "Real"da oynayır.

## ELAN

Şamaxı rayonu Aqrar İslahatı Komissiyasının 04 aprel 2001-ci il tarixli 03 nömrəli qərarına əsasən Məmmədov Samir Əsgər oğlunun adına verilmiş rayonun Göylər kəndində yerləşən A № 225109 , 1379.82 kv.m həyətyanı torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır. Dövlət Torpaq Kadastrı kitabında 15. 03.2010-cu il tarixdə 1260 nömrə ilə uçota alınıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000